www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 dekabr 2014-cü il Çərşənbə axşamı № 318 (6027) Qiyməti 40 qəpik

Xəbər

## Bakıda intiharlar şoku

yazısı səh.14-də

Gündəm

### Bakı-Vaşinqton münasibətləri daha da gərginləşir



Novruz Məmmədov yenə ABŞ rəsmilərini ittiham etdi; Azərbaycandakı vəziyyət Amerikada müzakirəyə çıxarılır

yazısı səh.9-da

### AzadlıqRadiosu çirkli pulların yuyulmasında şübhəli bilinir?

yazısı səh.4-də

### Mübariz Mənsimovun tankeri Rumıniyada saxlanıldı

yazısı səh.10-da

### “Müsavat parçalanır” iddiası yenidən gündəmə gəldi

yazısı səh.8-də

### Jurnalistin vəkilindən Siyavuş Novruzovun “agent” sözlərinə reaksiya

yazısı səh.6-da

### Bakı Təhsil İdarəsinə müdir tapılmır

yazısı səh.6-da

### Deputatdan banklara sərt ittiham

yazısı səh.11-də

### Fərhad və Rafiq Əliyev qardaşları xaricdəki bizneslərini genişləndirir

yazısı səh.6-da

### Kəlbəcər girovlarına hökm oxundu

yazısı səh.2-də

### Məhkumun ölümü 14-cü “zon”da yeni amansızlıqlara meydan açıb

yazısı səh.13-də

### Nazirdən Bakı kəndlərinə işləyən avtobuslara qadağa

yazısı səh.15-də

### Yoxa çıxan ikinci Malayziya təyyarəsinin axtarışları nəticə vermir

yazısı səh.13-də

## Prezident əfv fərmanı imzaladı

# TANINMIŞ BEŞ MƏHBUS AZADLIQDA!-TAM SİYAHI

Azadlığa buraxılanlar arasında tanınmış vəkil Qurban Məmmədov, jurnalist Sərdar Əlibəyli, Əvəz Zeynallı, NİDA-çılardan isə Zaur Qurbanlı və Üzeyir Məmmədli də var; Tofiq Yaqublu və İlqar Məmmədov həbsdə qaldı...




yazısı səh.3-də

## “Ergenekon”un “qara qutusu” Azərbaycan sərhədində tutuldu

Tuncay Güney Türkiyədə “fahişəliyə cəlb etmə” maddəsi ilə axtarışda imiş; onun məhz indi həbs edilməsi ilginc yorumlara səbəb olub

yazısı səh.10-da



Dimitriy Roqozin

### Kremlin MDB kuratorunun Bakıya məxfi səfəri

yazısı səh.9-da



*Arif Rəhimzadə:*

### “Yaxşı, iqtidar müxalifətə nağayırmalıdır ki?”

yazısı səh.5-də



### Ölkənin ən böyük məscidinin Şeyxə verilməməsinin sirri

yazısı səh.4-də

**30 dekabr 2014**

YENİ MÜSAVAT
N 318 (6027) 30 dekabr 2014



## Müsavat başqanı xalqı təbrik etdi

**Müsavat Partiyasının başqanı Arif Hacılı 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni təqvim ili münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli həmvətənlər!**

**Sizi 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və yeni təqvim ili münasibətilə ürəkdən təbrik edir, üzümüzə gələn 2015-ci ildə hər kəsə uğurlar arzulayıram.**

**1989-cu il dekabrın 31-də Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda apardığımız ümummilli hərəkatın yaratdığı ruh yüksəkliyi fonunda güneyli soydaşlarımızla uzun onilliklər bizi ayıran sərhəd məftillərinin sökülməsi həmin günü təqvimimizin ən əziz bayramlarından birinə çevirib. 1992-ci ildə xalq hərəkatı lideri Əbülfəz Elçibəyin təşəbbüsü, Milli Məclisin qəbul etdiyi qanun əsasında həmin gün Dövlət bayramı - Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi rəsmiləşdirildi.**

**İndi 31 dekabr bütün dünyada yaşayan 50 milyonadək azərbaycanlının həmrəylik günü kimi qeyd edilir. Bu illər ərzində dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıların təşkilatlanması, toparlanması, ümumi Azərbaycan idealı naminə birgə fəaliyyət göstərməsi sahəsində xeyli işlər görülüb. Bu işlər davam etdirilməli, hər bir azərbaycanlı xalqımızın ümummilli problemlərinin həlli işinə cəlb olunmalıdır. Xalqımız bu problemlərin həlli yolunda vahid bir qüvvəyə çevrilməlidir.**

**Qarşıdan həm də Yeni il bayramı gəlir. Təəssüf ki, 1993-cü ildən bəri ölkəni idarə edən Əliyevlər rejiminin səriştəsiz və xalqın mənafelərini əks etdirməyən siyasəti nəticəsində yola saldığımız il də itirilmiş illərdən biri oldu. Bu il də Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində hansısa bir irəliləyiş baş vermədi. Xalqın güzəranı yaxşılaşmadı, cəmiyyətdə təbəqələşmə bir az da dərinləşdi, varlıların daha da varlanması, yoxsulların isə daha da yoxsullaşması prosesi davam etdi. Ölkəmiz siyasi və vicdan məhbuslarının sayına görə dünyanın lider dövlətlərindən birinə çevrildi. İnsan hüquqları və digər azadlıqlar sahəsində yaranan acınacaqlı vəziyyət dözülməz həddə çatdı.**

**Üzümüzə gələn Yeni ildə istər Qarabağ probleminin, istərsə də sosial-iqtisadi və siyasi problemlərimizin həlli üçün fədakarlığımızı artırmalıyıq. Demokratik Azərbaycan dövlətinin qurulması, xalqımızın bütün dünyada nüfuzunun, dövlətimizin təsir imkanlarının artması naminə yolumuzdakı maneələri aradan qaldırmalı, bu yolda fəallıq nümayiş etdirməliyik.**

**Hörmətli həmvətənlər!**

**Bir daha bayramınızı təbrik edir, hamınızı layiqli gələcəyimiz naminə birliyə, həmrəyliyə çağırıram".**

# Deputat-rektorun bankından oğurluq etmək istəyənlər tutuldu

**Ağsu rayon sakini Əlisahib Bədəlov və Yevlax rayon sakini Kamil Bakirov həbs edilib. "Qafqazinfo" bildirir ki, onlar "Muğanbank" ASC-dən oğurluq etmək istəyiblər. Adıçəkilən şəxslər Yasamal Rayon Mühafizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb və 26-cı polis bölməsinə təhvil veriliblər.**

Bankın filialında quraşdırılan videokameralara baxış zamanı Ə.Bədəlovun və K.Bakirovun "Muğanbank" ASC-nin "Şərq" filialının giriş qapısının kilidini açmağa cəhd göstərdikləri müəyyən edilib.

Onlar dekabrın 29-da saat 01 radələrində isə Yasamal rayonunun M.Müşfiq küçəsində yerləşən kafenin qapısının qıfılını açmağa cəhd göstəriblər. Bu zaman həbs olunublar.

Qeyd edək ki, "Muğanbank" Odlar Yurdu Universitetinin rektoru, deputat Əhməd Vəliyev və kürəkəninə məxsusdur.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

## Başsağlığı

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı Müsavat Partiyasının Biləsuvar rayon təşkilatının NTK üzvü Qoşqar Nurəliyevə anası Nazbacı xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Hacı İbrahim Nehrəmli və "Avesta Concern"in kollektivi Rəhim Rəcəbova anasının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin!**

# Azərbaycanda araq və siqaret bahalaşacaq

**Azərbaycanda spirtli içki və tütün məmulatlarına tətbiq olunan aksiz dərəcələrinin artırılması təklif olunur. APA-nın məlumatına görə, vergilər nazirinin müavini Natiq Əmirov Milli Məclisin İqtisadi siyasət komitəsinin iclasında deyib ki, bununla bağlı Vergilər Məcəlləsinə dəyişiklik edilməsi təklif olunur.**



Onun sözlərinə görə, sənəddə aksizli malların siyahısının genişləndirilməsi və aksiz dərəcələrinin dəyişdirilməsi təklif olunur: "2004-cü ildən Azərbaycanda aksiz dərəcələrinin əsasən dəyişməz qaldığı bir şəraitdə tələb və təklif, o cümlədən digər amillərin təsiri ilə aksizli malların qiymətlərində dəyişikliklər müşahidə olunur. Beynəlxalq təcrübədə geniş istifadə olunan aksiz dərəcələrinin indeksasiyası ilə əlaqədar Azərbaycanda istehsal olunan içməli spirt, spirtli içkilərin bütün növlərinə (şərab istisna olmaqla), idxal olunan minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə tətbiq olunan aksiz dərəcələrinin artırılması nəzərdə tutulur.

Layihəyə əsasən istehsal olunan tütün məmulatlarına tətbiq olunan aksiz dərəcəsinin azalan qaydada hesablanmasından nisbi qaydada hesablanmasına keçirilməsi nəzərdə tutulur. Hazırda tütün və tütün məmulatlarına tətbiq olunan aksiz onların topdansatış qiymətinin hesablandığı halda təklif olunan dəyişikliyə əsasən siqarlar, ucları kəsilən siqarlar və siqarilla (nazik siqarlar), tütündən hazırlanmış siqaretlər və onun əvəzediciləri üçün yeni spesifik aksiz dərəcələri nəzərdə tutulur".

Dəyişiklik qəbul edilsə, içməli spirt *(o cümlədən tərkibində 80%-dən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80%-dən az spirt olan denaturlaşdırılmamış etil spirti)* hər litrinə aksiz dərəcəsi 0,8 manatdan 2 manata, araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatlarının hər litrinə 0,5 manatdan 2 manata, konyak və konyak materiallarının hər litrinə 0,2 manatdan 6 manata, şampan şərabının hər litrinə 0,2 manatdan 2,5 manata, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli-digər içkilərin hər litrinə 0,08 manatdan 0,2 manata qədər artırılacaq.

Bundan başqa, siqarlar, ucları kəsilən siqarlar və siqarillanın (nazik siqarlar) 1000 ədədinə 10 manat, eləcə də tütündən hazırlanmış siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə 4 manat aksiz dərəcəsinin tətbiqi təklif olunur.

Nazir müavini bildirib ki, bu dəyişikliklər Azərbaycan qanunvericiliyinin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılmasına, idxal olunan və daxildə istehsal olunan tütün məmulatlarına aksizin tətbiqi mexanizminin eyniləşdirməsinə imkan verəcək.



# Bakıda polisləri güllələyən şəxsə ömürlük cəza

**Dekabrın 29-da Bakı Ağır Cinayətlər Məhkəməsində iki nəfəri öldürməkdə, iki nəfəri yaralamaqda təqsirli bilinən 1959-cu il təvəllüdlü Gülağa Lətifovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Lent.az-ın məlumatına görə, iclasda təqsirləndirilən şəxs son sözlə çıxış edib. G. Lətifov peşman olduğunu, heç kimi öldürmək istəmədiyini bildirib. Bundan sonra hakimlər müşavirəyə gedib. Müşavirədən qayıdan hakimlər Gülağa Lətifovu ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediblər.**

Qeyd edək ki, əvvəllər məhkumluq həyatı yaşamış Gülağa Lətifov bu il fevralın 23-də saat 20:00 radələrində Sabunçu qəsəbəsindəki 68 saylı orta məktəbin yaxınlığında ağır cinayət törədib. O, münaqişə zəminində qonşuluqda yaşayan Fərid Qədirova, Akif Nəzərova, Yusif Alpaşayevə və Asif Nəzərova odlu silahdan atəş açaraq hadisə yerindən qaçıb. Nəticədə F.Qədirov və Y.Alpaşeyev dünyasını dəyişib. Suraxanı Rayon Polis İdarəsi rəisinin müavini, polis polkovnik-leytenantı Akif Nəzərov, eləcə də onun oğlu, polis leytenantı Asif Nəzərov isə yaralanıb.

# Müsavat sabah Şəhidlər Xiyabanını ziyarət edəcək

**Dekabrın 29-da Müsavat Partiyası Divanının iclası keçirilib. Partiyadan verilən xəbərə görə, Divan ilk növbədə Məclis sədri seçilən Nüşabə Sadıxlı və yeni seçilən Divan üzvlərini təbrik edib. Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib.**

Xəbərdə sonra deyilir ki, 23 dekabr 2014-cü ildə keçirilən bələdiyyə seçkilərinin ölkə üçün ənənəvi olaraq total saxtakarlıq və qanun pozuntuları ilə keçirildiyi bir daha qeyd edilib və bununla bağlı partiyanın hesabatı müsbət qiymətləndirilib.

Məclisdə əsas kimi qəbul edilən partiyanın 2015-ci il Fəaliyyət İstiqamətləri sənədinin son variantı təsdiq edilib.

Müsavat Partiyasının başqanı Azərbaycan xalqını 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik etdiyi barədə məlumat verib.

Divan AzadlıqRadiosunun əməkdaşlarının, o cümlədən radio ilə əməkdaşlıq edən digər jurnalistlərin məcburi qaydada prokurorluğa aparılmasını qətiyyətlə pisləyib.

Divan vəkil Yalçın İmanovun AzadlıqRadiosunun əməkdaşlarının müdafiəsindən qanunsuz olaraq kənarlaşdırılaraq şahid kimi dindirilməsini söz azadlığına qarşı kampaniyanın davamı kimi qiymətləndirib və bu siyasətə son qoyulmasını tələb edib.

Məlumatda son olaraq bildirilir ki, 31 dekabr saat 12.00-da bayram günü münasibətilə Şəhidlər Xiyabanının ziyarət edilməsi qərara alınıb.

**Sonda cari məsələlərə baxılıb.**

❑ E.SEYİDAĞA

# İŞİD-ə qoşulan azərbaycanlı həbs olundu

**Suriya döyüşlərində iştirak edərək ötən ay Azərbaycana qayıtdığı deyilən Xaçmaz rayon Xudat şəhər sakini Nadir Əlixanov həbs olunub. Publika.az-a hüquq-mühafizə orqanlarından daxil olan məlumata görə, N. Əlixanov bir neçə gün öncə saxlanılıb.**

O, xarici ordularda qanunsuz döyüşməkdə ittiham edilir. İddialara görə, N. Əlixanov ailəsi ilə birlikdə Suriyaya gedibmiş.

Qeyd edək ki, N. Əlixanov ötən həftə publika.az-a müsahibə verib. O, müsahibəsində Suriya döyüşlərində iştirak etmədiyini deyib və yayılan məlumatları şayiə adlandırıb.

"Mən 6 ay ailəmlə birlikdə Türkiyədə yaşamışam. Orda bir nəfər tanıdığım insanın evində qalmışam, həmçinin onun atasının sexində işləmişəm. İki ay öncə işlər yaxşı gətirmədi və mən evə qayıtdım. Sərhəddə mənə axtarışda olduğumu dedilər. Polis mənimlə danışıq aparıb. İndi də izlənirəm", - o, müsahibəsində demişdi.

N. Əlixanov Suriyada olduğunu təkzib etsə də, anasının o və qardaşı haqda hüquq-mühafizə orqanlarına məlumat verdiyi deyilir. Buna səbəbsə hər iki qardaşın evdən gedərkən anasına heç bir məlumat verməməsi olub. N. Əlixanovun qardaşı Sərxan Əlixanovun da Suriyada olduğu deyilir. Lakin N. Əlixanov bunu təkzib edib, qardaşının harada olduğunu bilmədiyini açıqlayıb.

# İlham Əliyev və xanımı Neft Fondunun yeni binasının açılışında

**Dekabrın 29-da prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Neft Fondunun 23 mərtəbəli yeni inzibati binasının açılışında iştirak ediblər.**

«AzərTAc»ın xəbərinə görə, dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış olub.

Məlumat verildi ki, binada akt, konfrans, iclas zalları, iki hissədən ibarət "qış bağı", "Petroleum lounge", kitabxana və xəzinə yerləşir. Bütün otaqlar və zallar ən son texnoloji avadanlıqla təmin olunub. İkinci mərtəbədəki muzeydə Azərbaycanın neft tarixini, Dövlət Neft Fondunun fəaliyyətini, maliyyələşdirdiyi layihələri, investisiyaları, qazanılan uğurları əks etdirən stendlər var.

Qeyd edilib ki, Dövlət Neft Fondunun inzibati binasının interyeri Azərbaycanın 9 xalçaçılıq məktəbinin elementlərini özündə ehtiva edən dizayn konsepsiyası əsasında qurulub. Binada informasiya texnologiyalarının işini təmin etmək məqsədilə ən müasir standartlara cavab verən "Data Center" yaradılıb. Burada, həmçinin Azərbaycanda ilk dəfə olaraq Bina İdarəetmə Sistemi fəaliyyət göstərir.

Yeni inzibati bina yaşıl bina standartlarına cavab verir. Burada alternativ enerjidən istifadə məqsədilə günəş panelləri quraşdırılıb.

Binada yaradılan şəraitlə tanışlıqdan sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Neft Fondunun kollektivi ilə xatirə şəkli çəkdirdilər.



# Kəlbəcər girovlarına hökm oxundu

**İşğal altındakı Dağlıq Qarabağda Dilqəm Əsgərov və Şahbaz Quliyev üzərində qurulmuş qanunsuz "məhkəmə" dekabrın 29-da başa çatıb.**

APA-nın "news.am" saytına istinadən yaydığı xəbərə görə, separatçı rejimin "birinci instansiya məhkəməsi" dekabrın 19-da keçirilən prosesdə "prokuror" Karen Qabrielyanın tələb etdiyi cəzaları təmin edib.

D. Əsgərov ömürlük həbs, Ş. Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına məhkum olunub.

Xatırladaq ki, bu ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər. Digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib. Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində qondarma "məhkəmə" prosesi oktyabrın 27-də başlayıb.

YENİ MÜSAVAT
N 318 (6027) 30 dekabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Prezident əfv fərmanı imzaladı



# Tanınmış beş məhbus azadlıqda! - tam siyahı

## Azadlığa buraxılanlar arasında tanınmış vəkil Qurban Məmmədov, jurnalist Sərdar Əlibəyli, Əvəz Zeynallı, NİDA-çılardan isə Zaur Qurbanlı və Üzeyir Məmmədli də var; Tofiq Yaqublu və İlqar Məmmədov həbsdə qaldı; jurnalistin xanımı: "Bu günü 1184 gün idi gözləyirdim"...

**Dekabrın 29-da prezident İlham Əliyev çoxdan gözlənilən əfv sərəncamı imzaladı. Əfv siyahısında beş tanınmış məhbusun adın var. Bunlar jurnalistlər Əvəz Zeynallı, Sərdar Əlibəyli, vəkil Qurban Məmmədov, o cümlədən NİDA Vətəndaş Hərəkatının iki üzvü - Zaur Qurbanlı və Üzeyir Məmmədlidir.**

Hazırda nəşrini dayandırmış "Xural" qəzetinin baş redaktoru olan Əvəz Zeynallı 2011-ci il oktyabrın 28-dən həbs edilib. O, 9 il müddətinə azadlıqdan məhrum olunub.

Sərdar Əlibəyli 2013-cü ilin avqustunda həbs edilib və 4 il müddətinə azadlıqdan məhrum olunub.

Qurban Məmmədov 2013-cü ildə Nəsimi Rayon Məhkəməsinin 6 dekabr tarixli hökmü ilə 3 il həbs cəzası almışdı. Zaur Qurbanlı və Üzeyir Məmmədli ötən ilin yazında daha 6 NİDA-çı ilə birgə tutulublar. Gənclər kütləvi iğtişaşları təşkil etmə cəhdində təqsirli bilinibləR və 6-8 il aralığında həbs cəzaları alıblar. Zaur Qurbanlı 8 il, Üzeyir Məmmədli 7 il müddətinə azadlıqdan məhrum edilmişdi.

### Əfv olunanların tam siyahısı

**I. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:**

1. Abbasov Elçin
2. Abbasov Hacı
3. Abdulxalıqov Kənan
4. Abdullayev Rüfət
5. Abışov Pərviz
6. Ağalarov Şahlarbəy
7. Ağalıyev Yasəf
8. Aldemir Halil
9. Allahverdizadə Əli
10. Bəşirov Azad
11. Boroşkov Anton
12. Budaqov Çingiz
13. Cəfərov Aslan
14. Cəfərov Ayaz
15. Cəlilov Əzizağa
16. Dadaşov Seymur
17. Dronov Yuriy
18. Etibar Məmməd oğlu
19. Əhmədov Zaur
20. Əhmədova Nüşabə
21. Əkpərli Səməd
22. Ələkbərov Şahlar
23. Əliyev Sərdar
24. Əlnağıyev Şakir
25. Əskərov Azad
26. Həsənov Şahin
27. Həsənova Günel
28. Hümbətov İsmayıl
29. Hüseynov Ceyhun
30. Hüseynov Elçin
31. Hüseynov Əli
32. Hüseynov Ruhid
33. Xəlilov Rəşad
34. İbrahimov Ceyhun
35. İnsafi Ələkbər
36. İsazadə Qulam
37. İsgəndərov Niyazi
38. İslahlı Elsun
39. İsmayıllı Elşən
40. Kazımlı Məhərrəm
41. Kərimov Famil
42. Qasımov Anar
43. Qasımov Anar
44. Qasımov Hənifə
45. Qasımov Nazim
46. Qasımov Raqif
47. Qəhrəmanov Nahid
48. Quliyev Ceyhun
49. Quliyev Emin
50. Quliyev Rəşad
51. Quliyev Şirməmməd
52. Quluyev Muraday
53. Qurbanlı Zaur
54. Mahmudov Mehman
56. Mecidov Eldar
55. Mehtiyev Nəsrəddin
57. Məmmədli Üzeyir
58. Məmmədov Qurban
59. Mikayılov Rəsul
60. Mustafayev Mustafa
61. Mustafayev Nuruzadə
62. Mustafayev Rövşən
63. Mustafayev Şahin
64. Mühübəliyev Şükran
65. Orucov Pərviz
66. Orucov Tural
67. Ramazanov Yusif
68. Rzayev Mahir
69. Rzayev Namil
70. Sarıyev İman
71. Səfərov Ədalət
72. Səlimov Ziya
73. Sultanlı İlqar
74. Şükürov Namiq
75. Teymurov İlqar
76. Vəliyev Nicat
77. Vəliyev Zamiq
78. Zeynalov Əvəz
79. Zeynalov Vüsal

**II. İslah işləri cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:**

1. Xabibov Rəhman
2. Mehdiyev Namik
3. Məhərrəmov Dəyanət

**III. Cərimə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzadan azad edilsinlər:**

1. Abdullayev Səfər
2. Əliyev Qalib
3. İsrafilov Səbuhi
4. Mehdiyev Mürüvvət
5. Musayev Cəfərağa

### Hüquq müdafiəçiləri əfv sərəncamın necə dəyərləndirir?

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu musavat.com-a açıqlamasında əfv sərəncamını yüksək qiymətləndirdiyini bildirdi:** "Bu başlanğıcdır. Biz çalışacağıq İntiqam Əliyev, Leyla Yunus, Rəsul Cəfərov, Anar Məmmədli, Bəşir Süleymanlı, Nemət Pənahlı, Xədicə İsmayıl və digərlərinin azadlığa buraxılmasına çalışaq. Çox istərdim ki, Pərviz Həşimli də azadlığa çıxsın. Yaxın aylarda onların da azadlığa buraxılması məsələsini həll etməyə çalışacağıq. Prezidentə təşəkkür edirəm. Mart ayına qədər çoxlu dəyişikliklər olacaq. Əfv sərəncamı olmadan da marta qədər azadlığa çıxma ehtimalı olanlar var. Siyahımızda olan bir çox başqa məhkumlar da azadlığa çıxıb. Mənim üçün Əvəz Zeynallı, Zaur Qurbanlı, Üzeyir Məmmədli və digərlərinin azadlığa buraxılması çox sevindiricidir. Zaur, bildiyimiz kimi, xəstə idi. Onun azad olunmasına çox sevindim. Bundan sonra da bu istiqamətdə işlərimizi davam etdirəcəyik".

**İşçi Qrupunun digər üzvü Səidə Qocamanlı qismən də olsa gözləntilərinin doğrulduğunu qeyd etdi:** "Prezident artıq gözlədiyimiz əfvi imzaladı. Siyahımızdan 10 nəfər azadlığa buraxıldı. Bu birinci etap idi. Siyahımızda olan digər şəxslərin də azadlığa buraxılması məsələsinə baxılacaq. Ümid edirəm ki, yanvar ayında onların da işi müsbət həll olunacaq. Bunların hər biri insan taleyidir. Azadlığa çıxanlar üçün çox sevinirəm. Biz arzulayırdıq ki, çox adam azadlığa çıxsın. Amma "dama-dama göl olar". Azadlığa buraxılanlar üçün də təşəkkür etmək lazımdır. Gözləntilərimizin doğrulmadığını deməzdim. Qismən doğruldu. İşçi Qrupu fəaliyyətinə davam edəcək. Çox güman ki, bayramdan sonra Avropa Şurasının qış sessiyası ərəfəsində yenidən toplaşacağıq".

### Jurnalistin xanımı: "4-cü ilə keçir ki, bu xəbəri gözləyirdim"

**Əfv sərəncamı ilə azadlığa buraxılan "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının həyat yoldaşı Məlahət Zeynallı bu xəbəri ilk dəfə bizdən eşitdiyini bildirdi. O, keçirdiyi hissləri bizimlə bölüşdü:** "İnanırsınız ki, hələ də əfv olduğuna inana bilmirəm. Mən bu qərarı 1184 gün idi ki, gözləyirdim. Çox sevinirəm. Hisslərimi ifadə edə bilmirəm. Artıq 4-cü ilə keçir ki, bu xəbəri gözləyirdim. Allah bütün siyasi məhbusların qapısını açsın. Heç zaman istəmərəm ki, günahsız insanlar həbsdə olsun. Hamısına azadlıq nəsib olsun. İnsan üçün azadlıqdan dəyərli heç nə yoxdur".

**Zaur Qurbanlının atası Araz Qurbanlı sevincindən ağladı:** "Sevincdən evdə hər kəs ağlayır. Yoldaşlarının buraxılmamasına təəssüflənirik. Rəşadətin körpə balası var. Digərlərinin gözləyəni var. Zaurun azad olunmasında köməyi keçən hər kəsə təşəkkür edirəm. Vəkil və jurnalistlərdən tutmuş dövlət rəhbərinə qədər. Allah digərlərinin də qapısını açsın. İnşallah, növbəti dəfə onlar da azadlığa çıxar".

### Arif Hacılı: "Təəssüf ki, ümidlər doğrulmadı"

Verilən əfvdə çoxları Müsavat başqanının müavinləri Tofiq Yaqublu və Yadigar Sadıqovun, eləcə də REAL sədri İlqar Məmmədovun azadlığa buraxılacağına ümid edirdi.

Müsavat başqanı Arif Hacılı əfv sərəncamını belə dəyərləndirdi: "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində yerli və beynəlxalq təşkilatların siyasi və vicdan məhbusu elan etdiyi şəxslərin azadlığa buraxılması təbii ki, bir tərəfdən Azərbaycanın mənafelərinə uyğun olan bir addım, həm də ədalət prinsipinin qismən də olsa, bərpası kimi qəbul oluna bilərdi. Nə Azərbaycan cəmiyyəti, nə də ölkəmizdə fəaliyyət göstərən siyasi qüvvələr, ictimai birliklər daha çox siyasi əqidəsinə görə həbs edilən məhbusun bayram günü ərəfəsində azadlığa çıxacağına ümid bəsləyirdi. Təəssüf ki, ümidlər doğrulmadı. Hakimiyyət dairələri yenə də ölkədə vətəndaş həmrəyliyinə nail olmaq imkanlarını itirdilər".



**Müsavat başqanı Avropa Şurası Nazirlər Komitəsinin REAL sədri İlqar Məmmədovla bağlı qərarına ölkə iqtidarının məhəl qoymamasına da toxundu:** "Azərbaycan hakimiyyəti beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmir. Beynəlxalq birliyə qarşı açıq meydan oxuyan siyasət həyata keçirir. Bu da hesab edirəm ki, Azərbaycanın milli mənafelərinə ziddir. Təəssüf ki, Azərbaycan hakimiyyəti bu istiqamətdəki siyasətinə düzəliş etmək əvəzinə, beynəlxalq aləmdə daha radikal mövqelər tutmaqla ölkəmizə problemlər yaratmaqda davam edir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 318 (6027) 30 dekabr 2014



# Rus dilində danışan Azərbaycan diplomatiyası

Azər RƏŞİDOĞLU

**Azərbaycan birmənalı şəkildə Rusiyaya meyllənə bilərmi? İndi çoxlarını bu sual düşündürür. Kənardan görünən budur ki, rəsmi Bakı özünü son dərəcə mühüm oyunçu hesab edir. Elə buna görə də hamıya qarşı informasiya savaş açır.**

Lakin Azərbaycan diplomatiyasında Rusiyaya meyli açıq-aydın hiss edilməkdədir. Ölkədə Qərbin demək olar ki, bütün institutları məhv edilib, Avropanın, ABŞ-ın əksər təşkilatları sıradan çıxarılıb. Artıq Qərb institutları ilə əməkdaşlıq edənlər arzuolunmaz şəxslərə çevriliblər. Qərbin adekvat addımları isə hələ də niyə görünmür. Görünən budur ki, Qərb Rusiyanın tamamilə çöküşünü gözləyir və anlayır ki, bu çöküşlə "şimal istiqaməti" seçən ölkələr də batacaqlar.

Lakin istisna deyil ki, Qərb Azərbaycana təzyiqlərini artıracaq. Bunun nəticəsi olaraq isə hakimiyyət tamamilə Rusiyanın tərəfinə keçəcək. Bir sözlə, Bakı Kremlin hərbi, siyasi, iqtisadi tərəfdaşına çevrilmək üzrədir.

Rusiyanın böhran içərisində çabaladıyı bir zamanda "şimal istiqaməti"ni seçmək ağlasığmazdır. Lakin rəsmi Bakı sürətlə Moskvaya yaxınlaşır. Bu gün Azərbaycanın hərbi sahədə Rusiya ilə əməkdaşlığı Qərblə müqayisədə daha böyük həcmdədir. Rəsmi Bakının Qərblə əməkdaşlığının əksər istiqamətləri imitasiya xarakteri daşıyır, yaxud da ümumiyyətlə, sabotaj olunur.

İndi Rusiya ekspertləri özləri etiraf edir ki, Qərblə mövcud münasibətlər azı iki il davam edəcək. Odur ki, Rusiyanın durumunun ağırlaşacağını ehtimal edə bilərik. Belə bir vəziyyətdə olan Rusiya Azərbaycana hansı yardımı edə bilər? Göründüyü kimi, Qərb Azərbaycanın Rusiyanın yedəyində batmasına bu mərhələdə göz yummaq fikrindədir. Kremlin Bakıya təzyiq mexanizmi tükənmək üzrədir. Rusiyanın bir yolu qalır - Qarabağ müharibəsini yenidən alovlandırmaq. Azərbaycan iqtidarı lokal müharibədə kiçik qələbə, bir neçə rayonun qaytarılmasına nail olarsa, öz rəqiblərinə sarsıdıcı zərbələr vura bilər. Proseslərin təhlili də göstərir ki, Azərbaycan Kreml tərəfindən müharibəyə sövq edilir. Müharibə isə Qərbin maraqlarına cavab vermir. Ən azı enerji daşıyıcılarının təhlükəsizliyi baxımından Qərb buna razı ola bilməz. Avropa Yay Oyunlarına az bir vaxt qalmış şəraitdə belə bir savaşda Bakı da maraqlı ola bilməz. Lakin Rusiya irimiqyaslı deyil, lokal müharibədə maraqlıdır. Tərəflərə təzyiqini saxlaya bilməkdən ötrü Moskvaya status kvonun saxlanılması daha önəmlidir. Odur ki, irimiqyaslı hərbi əməliyyatlardan söhbət gedə bilməz. Düzdür, rəsmi Bakı bütün cəbhə boyunca müharibəyə başlamağa şirnikləndirilə bilər. Bu isə artıq son demək olardı.

Maraqlıdır ki, Bakı hamı ilə münasibətlərini korlayır. Qərbin Azərbaycan iqtidarına təzyiqlərinin artdığı bir zamanda yenidən Rusiya tərəfindən sıxıldığını, bunun isə ABŞ-ın enerji layihələrinə ciddi zərbələr endirdiyini nümayiş etdirmək Bakı üçün bu dəfə xilas kəməri olmaya bilər.

Yəni, Rusiya Qərbin enerji layihələrinin təminatçısı kimi çıxış edən Azərbaycan hakimiyyətini "bitirmək" istəsə, ikincinin rəsmi Bakıya dəstək verməkdən başqa yolu qalmır. Lakin əgər "Azərbaycan məsələsi"ndə tərəflər razılığa gəlsələr, vəziyyət daha da ağırlaşa bilər.

Hakimiyyətin seçəcəyi yol hamını düşündürür. Sağlam məntiq və ölkənin gələcəyi Rusiyanın "beşinci kolon"unun təmizlənməsini zəruri edir.

Rusiya öz təsir agenturasının dili ilə tələblərini açıqlayır - rus ordusu yenidən Azərbaycana qayıtmalıdır, Bakı enerjidaşıyıcılarında Moskva ilə daha sıx əməkdaşlıq etməli, siyasi iradəsinin önəmli hissəsini "könüllü" şəkildə "böyük qardaşa" həvalə etməlidir.

Moskvanın şantajlarının artdığı bir vaxtda Azərbaycanın xarici siyasətində baş verən dəyişikliklər nə dərəcədə məqbuldur? Rusiyanın təhdidlərinin genişləndiyi bir vaxtda Türkiyə və Avroatlantik məkanla əməkdaşlıq daha məqbul görünür.

Heç də təsadüfi hesab oluna bilməz ki, hakimiyyətdəki "beşinci kalon" tam hücuma keçib. Artıq onlar hakimiyyəti də Rusiyapərəst xətt yeritməyə vadar edirlər. İndiki xəttin qarşısı alınmasa, daha ağır fəsadlar törədə bilər. Ehtimal etmək olar ki, Azərbaycanın gələcəyini düşünən qüvvələr məhz Qərblə inteqrasiya yolunu seçəcəklər. Əks təqdirdə, Azərbaycan bir ölkə kimi xəritədən silinə bilər...

# AzadlıqRadiosu çirkli pulların yuyulmasında şübhəli bilinir?

Radionun əməkdaşlarının dindirilməsi davam edir; **AŞ-nin baş katibi:** "Avropa Şurası bu baş verənlərin səbəbləri və hüquqi əsasları barədə Azərbaycandan izahat istəyəcək"

**Dekabrın 28-də AzadlıqRadiosunun 20-yə yaxın jurnalistinin dindirilməsindən sonra dekabrın 29-u səhər saatlarından daha 10-a yaxın əməkdaş vəkil iştirakı olmadan ifadə verməyə çağırılıb. "Amerikanın Səsi"nin İstintaq İdarəsinin qarşısında dindirilmə prosesini izləyən müxbirinin məlumatına görə, əməkdaşlar orta hesabla bir saatdan üç saatadək şahid qismində ayrı-ayrı müstəntiqlər tərəfindən dindirilib.**

Jurnalistlər QHT-lərlə bağlı cinayət işi üzrə ifadə verib. Onların demək olar ki, hamısı polis vasitəsilə istintaqa gətirilib. İstintaqdan çıxarkən jurnalistlərin bir çoxu vəkillə müqavilə bağlamağa belə imkan verilmədiyini deyib.

İstintaq sirrini yaymamaq barədə iltizam alındığından dindirilən şəxslər istintaqın maraqlandığı məsələlərlə bağlı məlumat verməkdən imtina edib.

"Bir sgra qeyri-hökumət təşkilatlarının cinayət işinin araşdırılması çərçivəsində AzadlıqRadiosuna xaricdən külli miqdarda pulun daxil olması barədə məlumat daxil olub".

APA-nın xəbərinə görə, bu barədə "İnterfaks-Azərbaycan" agentliyinə istintaqa yaxın mənbədən məlumat verilib.

Məlumata əsasən, 2010-cu ildə radionun hesabına 760 min dollardan, 2011-ci ildə 570 min dollardan, 2012-ci ildə 700 min dollardan, 2013-cü ildə 780 min dollardan, 2014-cü ildə isə 730 min dollardan çox vəsait daxil olub.

Alınmış məlumatla əlaqədar olaraq məhkəmənin qərarı ilə bu il dekabrın 20-də AzadlıqRadiosunun hesabına həbs qoyulub, dekabrın 26-da radionun yerləşdiyi binada axtarış aparılıb, sənəd və avadanlıqların siyahısı çıxarılıb. Məkan möhürlənib və mühafizə altına alınıb.

Avropa Şurasının baş katibi Thorbjorn Jagland dekabrın 28-də bildirib ki, AzadlıqRadiosuna basqı Azərbaycanda ifadə azadlığı ilə bağlı narahatlığı yenidən qaldırır. Jagland deyib ki, Avropa Şurası bu baş verənlərin səbəbləri və hüquqi əsasları barədə Azərbaycandan izahat istəyəcək.

Azərbaycan prezidentinin sözçüsü Azər Qasımov isə AzadlıqRadiosunun Bakı bürosunun ofisində axtarış aparılması, ofisin qapısının möhürlənməsi və əməkdaşların istintaqa cəlb olunması ilə bağlı ABŞ rəsmilərinin tənqidlərinə cavab verib.

**Azər Qasımov "mediaforum" saytına deyib:** "Qanun hər kəsə şamil edilir. Prokurorluq əməkdaşlarının AzadlıqRadiosunun Bakı bürosunun ofisində axtarış aparması və digər hüquqi prosedurlar Azərbaycan qanunvericiliyinə uyğun şəkildə həyata keçirilir. Buna heç kəsin şübhəsi olmasın".

Bu arada qırğız insan haqları fəali Bişkekdə AzadlıqRadiosunun Azərbaycan xidmətinə dəstək nümayişi keçirir. Tanınmış insan haqları fəali Ondurmusjh Tokhtonasyrov Azərbaycan səfirliyinin qarşısına "Azadlıq! Biz səninləyik", "İsmayılovaya azadlıq!" şüarları ilə çıxıb və Azərbaycan hakimiyyətini başqa ölkələrə pis nümunə verməməyə çağırıb. İnsan haqları fəali Azərbaycan hakimiyyətini jurnalistlərə qarşı zorakılıqda və söz azadlığını pozmaqda ittiham edib.

Xatırladaq ki, dekabrın 26-da AzadlıqRadiosunun Bakı bürosunun "Kaspian Plaza"da yerləşən ofisində axtarış aparılıb və sonda ofisin qapısı möhürlənib. Prosesi Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin əməkdaşları aparıb. Bunun Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində açılmış cinayət işi ilə bağlı olduğu bəyan edilib.

❑ Sevinc TELMANQIZI

# Ölkənin ən böyük məscidinin Şeyxə verilməməsinin sirri

"Heydər" məscidinin BŞİH-də saxlanması QMİ sədrinin iqtidardakı rəqiblərindən ona növbəti zərbə kimi qiymətləndirilir...

**Xəbər verildiyi kimi, dekabrın 26-da Bakıda yeni və ən böyük "Heydər" məscidinin açılışı olub. Açılış mərasimində prezident İlham Əliyev və ailə üzvləri iştirak ediblər.**



Məscidin tikintisi ilə bağlı sərəncamı ölkə başçısı 2012-ci ildə vermişdi. Dövlət vəsaiti hesabına tikilən yeni məscid Binəqədi ərazisində yerləşir və eyni vaxtda 4 min dindarın ibadət etməsi imkanlarına sahibdir. Məscidin təhvil verilməsindən sonra əsas diqqət yeni ibadət ocağının axundunun kim olacağı və məscidin hansı quruma veriləcəyindən yana idi. Mətbuatda gedən iddialara görə, məscidin idarəçiliyi Qafqaz Müsəlmanları İdarəsinə (QMİ) veriləcək və axund da qanuna əsasən QMİ tərəfindən təyin olunacaq.

Ancaq məscidin açılışından sonra bura axund təyinatı ilə bağlı heç bir məlumat yayılmadı. "Trend" məscidə QMİ sədrinin müavini Hacı Fuad Nurullanın axund, QMİ sədrinin birinci müavini müfti Hacı Salman Musayevin (Əfəndi) isə imam təyin olunacağı ilə bağlı xəbər yaydı. Ancaq az sonra yenə həmin agentliyin yaydığı məlumatda məscidin saxlanılması və idarə edilməsinin BŞİH-ə həvalə edildiyi qeyd olunurdu. BŞİH-dən verilən məlumatda həmçinin "Heydər" məscidinin axundunun və imamının təyinatı haqqında məlumat veriləcəyi bildirilirdi.

Azərbaycanın qanunlarına əsasən məscidlər - tarixi abidə statusunda olanlar istisna olmaqla, dini icmalar vasitəsilə idarə olunur. Bir sıra məscidlər isə birbaşa QMİ-nin idarəçiliyindədir. Ancaq istisnasız bütün ölkə məscidlərinə axund və imam təyinatı QMİ ilə razılaşdırılmaqla və ya birbaşa QMİ tərəfindən təyin olunur. Ancaq görünən odur ki, yeni məscidlə bağlı durum bir qədər fərqli olub. Əks halda, idarəçilik BŞİH-ə verilməzdi. Üstəlik, BŞİH axund təyinatı ilə bağlı açıqlamada bu işin QMİ tərəfindən həyata keçirəcəyini qeyd etməyib. Yəni dolayısı ilə işarə olunur ki, axund təyinatını bu dəfə QMİ ilə BŞİH birgə razılaşdıracaq.

Məsələ ilə bağlı QMİ-yə ünvanladığımız suala idarədən yalnız onu bildirdilər ki, açıqlamada hər şey açıq şəkildə qeyd olunub. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə yeni məscidə axund təyinatı və məscidin icmasının yaradılması ilə bağlı ünvanladığımız sual da cavablandırılmamış qaldı.

Özəl qaynaqlarımızdan əldə elədiyimiz məlumata görə, həqiqətən də yeni məscidi Şeyxin idarəsinə verməyiblər. Əlbəttə, axund və imam təyinatı QMİ ilə razılaşdırılacaq, ancaq məscidin idarəçiliyi yenə BŞİH-də qalacaq. Bunun isə qəribə səbəbi var. Belə ki, yeni məsciddə çoxlu sayda mərasim zalları var. Bu zallarda əhali üçün yas məclisləri təşkil olunacaq. Məscidin BŞİH-ə verilməsinin bir səbəbi də məhz bu mərasim zallarının idarəçiliyi ilə bağlıdır. Ölkə rəhbərliyi yeni məscidin və mərasim zallarının BŞİH-in idarəçiliyində olmasını istəyib.

Məsələ burasındadır ki, "Təzəpir" məscidində olan və dövlət hesabına tikilmiş mərasim zalları əhaliyə xeyli baha qiymətə xidmət göstərir və israfçılıq hallarının ən geniş yayıldığı məkanlardan sayılır. Üstəlik, bu ilin yayında hökumətin tətbiq etdiyi ehsan qadağasına ilk dəfə açıq şəkildə müqavimət göstərən məhz QMİ-nin nəzarətindəki mərasim zalları oldu və bununla da faktiki olaraq ehsan qadağası işləmədi. Yeri gəlmişkən, bu zalların şeyxülislamın qardaşı deputat Cavanşir Paşazadənin nəzarətində olduğu deyilir. Hökumətin Şeyxlə ciddi problemi olmasa da, qardaşının hərəkətlərindən xeyli narazılıq olduğu deyilir. Hətta deyilənə görə, mərasim zallarındakı bahalıqdan bir sıra rəsmilərin də şikayətləri olub.

Hakimiyyət bu halları nəzərə alaraq yeni məscidin və onun tərkibində 10-a yaxın olduğu deyilən mərasim zallarını QMİ-yə deyil, BŞİH-ə verməyi qərara alıb. Ancaq bu hərəkətin arxasında Şeyxin özünə qarşı hakimiyyətdəki düşmənlərinin planları da dayana bilər. Daha əvvəllər də qeyd etdiyimiz kimi, son illərdə hakimiyyət içərisində Şeyxin güclü rəqibləri formalaşıb və onlar QMİ sədrinin mövqelərini zəiflətməyə çalışırlar. Şeyx ölkə başçısına yaxın olmasından istifadə edərək rəqiblərinin zərbələrindən yayınsa da, ona qarşı hücumlar davam edir və hər cəhddə Şeyxin nüfuz dairəsinin daraldılması cəhdləri olur.

Onu da xatırladaq ki, təxminən 10 gün əvvəl QMİ-nin əməkdaşı Elşən Mustafaoğlu MTN tərəfindən saxlanılıb və ona qarşı 4 aylıq həbs-qətimkan tədbiri seçilib. Ancaq rəsmi qurumlar hələ də E.Mustafaoğlunun həbsi ilə bağlı rəsmi məlumat açıqlamayıblar.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 318 (6030) 30 dekabr 2014

# “Çevriliş-zad boş söhbətdir”

## Arif Rəhimzadə: “Yaxşı, iqtidar müxalifətə nağayırmalıdır ki?”

**“91-lər”-in tanınmış üzvlərindən biri, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə “Yeni Müsavat”a geniş müsahibə verib. “Aktual” rubrikasındakı söhbətimiz zamanı geridə qalan bələdiyyə seçkilərindən başlamış Azərbaycanı gözləyən təhlükələrə qədər bir çox aktual məsələlərdən danışdıq.**

***- Arif müəllim, bələdiyyə seçkilərinə seçici marağının aşağı olacağı təxmin olunurdu, amma bu dərəcədə yox. Seçkilərin olduqca sönük keçməsi, hətta bu durumda da pozuntuların qeydə alınması sizdə hansı təəssürat yaratdı?***

- Mən bilmirəm siz nəyin əsasında belə deyirsiniz? Keçən seçkilərdə davamiyyət, seçicilərin iştirakı, deyəsən, 34 faiz idi, indi 38 faiz olub. Bu, pis deyil ki. Artım var. İkincisi də bir-iki hal olubsa, buna MSK baxıb qərarını verdi. Bir-iki yerdə hansısa hadisə olubsa, bu, o demək deyil ki, seçkilər pis keçib. Bizdə seçki MDB məkanındakı seçkilərdən çox-çox üstün keçirilir. Çünki maddi-texniki bazası yaxşıdır, işləyən adamların yüksək peşəkarlığı var. Min seçki məntəqəsində vebkameralar quraşdırılıb. Siz dediyiniz məsələ də o vebkameranın hesabına aşkarlanıb.

***- Ancaq məntəqədə jurnalistin üzərinə hücum çəkən komissiya sədri, ya üzvlərini sərt cəzalandırmaq olar ki, digərlərinə də görk olsun...***

- Mən siz dediyiniz məsələni görməmişəm. Hücum edibsə də, məhkəməyə müraciət olunmalıdır. Təbii ki, müraciət olsa, qanun çərçivəsində baxılacaq, tədbir görüləcək.

***- Siz iştirak faizinin 38 olduğunu dediniz. Amma iddialar var ki, heç 10 faiz seçici də iştirak etməyib...***

- İddia ola bilər. Lap 38 olmasın, 30-33 faiz olsun, bu da mümkündür. Ancaq bu, o demək deyil ki, respublika üzrə belə bir şey olub. İkincisi də iddia varsa, gərək faktlarla təqdim olunsun. Həm də bizim qanunvericiliyə görə seçkiyə 10 nəfər də gəlsə, baş tutmuş sayılır. Bizdə limit, aşağı hədd yoxdur.

***- Adətən Türkiyənin bələdiyyə sistemindən həsədlə danışırıq. Olmazmı ki, Azərbaycanda da bələdiyyələrin statusu artırılsın? Bu, onların nüfuzunun artmasına, həm də əhalinin öz taleyinə biganə münasibətinin dəyişməsinə imkan verərdi. Hər halda, sizin rəqəmlərə istinad etsək, 70 faizin kənarda qalmağı, toplumun evindən başlayan biganəliyi deməkdir.***

- Bu, seçki ilə əlaqədar biganəlik deyil... Deyirsiniz, onlara əlavə səlahiyyətlər verilsin. Bələdiyyələrin kifayət qədər səlahiyyətləri var. Həm də məsələ artıq səlahiyyət verilməsində deyil, bununla iş bitmir. Gərək o, düzgün qəbul olunsun. Cəmiyyətdə, insanların arasında ictimai fəallıq olmalıdır. Bu fəallıq yoxdur. O demək deyil ki, bələdiyyə sifariş şöbəsi olacaq, sifariş əsasında işləyəcək. Gərək əhali də bu işdə fəal iştirak etsin. Əlbəttə, bələdiyyə aparatından da asılı məsələlər var. Amma əksər halda insanların öz fəallığından asılıdır. Camaat görür ki, 4-cü mərtəbədən kimsə aşağıdakıların başına zibil atır, bir adam onu qınamır. Mənzil Məcəlləsinə görə, yaşayış evlərinin 94 faizi özəlləşdirilib. Bu, o deməkdir ki, mənzillərin sahibi orda yaşayan adamlardır. Ancaq bir dəfə görürsünüzmü ki, yığılsınlar, bir komitə, ya MMC yaratsınlar, məsələ ilə əlaqədar özləri fəal məşğul olsunlar? Yox, hamı gileylənir. Əhali tərəfindən ictimai fəallıq

### “Camaat görür ki, 4-cü mərtəbədən kimsə aşağıdakıların başına zibil atır, bir adam onu qınamır”

olmayanda da hansısa bir qurum bu funksiyanı öz üzərinə götürür, o işlə məşğul olmağa başlayır, əlbəttə, xeyrini də ordan götürür. Əlbəttə, bələdiyyələrin səlahiyyətləri artırılmalıdır və bu, tədricən artırılır. Ancaq səlahiyyətləri birdən-birə artırmaq məsələni həll etməyəcək. Gərək buna cəmiyyət hazır olsun. Açığını deyim, cəmiyyət bu dəqiqə bələdiyyə sistemi ilə işləməyə bir çox hallarda hazır deyil.

***- İlk bələdiyyə seçkiləri 1999-cu ildə olmuşdu. Onda seçkilərdə aktivlik yüksək səviyyədəydi. Budəfəkindən fərqli olaraq o zaman beynəlxalq müşahidəçilər də var idi. Bəlkə ötən illərdə seçkilərdəki neqativlər həm də cəmiyyətin seçki prosesinə inamını qırıb.***

- Yox, səbəb odur ki, ümumiyyətlə, biz, Azərbaycanda yaşayan vətəndaşlar özləri bir iş görmək istəmir. Deyək ki, bir binada yaşayan 5-10 adam yığılsın, müzakirə etsin, qərar versin, qabağa düşən biri olsun, gedib hüquqları tələb etsin, bizdə belə şeylər yoxdur.

***- Qabağa düşməyi təhlükəli sayırlar, bu da var...***

- Nə təhlükə gözləyə bilər? Götürür 5-ci mərtəbədən aşağı zibil atır. Heç binanı da demirəm, bir adam qabağa düşüb həmin blokun camaatını yığıb zibil tökənlə söhbət aparılmasını təşkil edə bilməzmi? Bunun nə təhlükəsi var? Yaxud zibilqabları qoyulub, ancaq fırladıb atırlar, zibil kənara düşür. Belə adamları qınamağın, utandırmağın, tərbiyə etməyin nə təhlükəsi var?

***- Amma icra hakimiyyətləri də “Domokl qılıncı” kimi bələdiyyələrin başının üstündən asılıb. Bu mənada hesab etmirsiniz ki, bələdiyyələrin irəli gedə bilməməsinin baiskarı həm də icra strukturlarıdır?***

- İcra hakimiyyəti də görür ki, bələdiyyə bir çox hallarda üzərinə düşən vəzifələrin öhdəsindən gələ bilmir, ona görə də həmin funksiyaları öz üzərinə götürür. Bilirsiniz, insanın təbiətindədir, heç kəs səlahiyyətini vermək istəmir, o cümlədən yerli icra orqanları. Yerli icra orqanları görsələr ki, həqiqətən də orda bir hərəkət var, camaatın marağı var, məsələlərə biganə deyil, onda cızığından çıxmaz. 2013-cü ildə Sumqayıt şəhərində bələdiyyələrin büdcəsindən əlavə 1 milyon 400 min manatlıq iş görüblər. Asfaltsalma, səkilərin təmiri, qaz çəkilişindən sonrakı bərpa işləri görülüb. Elə bilirsiniz o təşkilat özü təşəbbüs göstərib? Yox, orda yaxşı qruplar yaradılıb, fəal insanlar var. Özü də cavan qadınlardır, gedib tələb edirlər, başa salırlar və səlahiyyətlərini, hüquqlarını tələb edirlər, bu işlərə nail olurlar. Çünki orda fəallıq var.

***- 2015-ci il parlament seçkiləri ilə bağlı hansı yenilik gözlənilir? Parlamentin tərkibində ciddi dəyişiklik olacağından da danışılır.***

- O barədə proqnoz vermək düzgün deyil. Ancaq cəmiyyət inkişaf edir, ölkəmiz dünyanı bürümüş ağır vəziyyətdən kənardadır, camaatda razılıq hissi var. Əlbəttə ki, bu razılıq hissi, ölkəmizin inkişafı insanların fəallığının ilbəil artacağına inam yaradır. Seçki də yüksək şəraitdə keçiriləcək.

***- Amma müxalifətin azsaylı nümayəndələrinin belə bələdiyyələrdən kənarda qoyulmasını parlament seçkilərinin testi sayanlar da var...***

- Yaxşı, iqtidar müxalifətə nağayırmalıdır ki? Onlardan ötrü təbliğat işi aparmalı, onların nümayəndələrini seçib qeydiyyatdan keçirməlidir? Müxalifət işləsin, eləsin də. Bunlar müxalifətin vəzifəsidir. Yəqin müxalifət lazım bilmir, ya imkanı yoxdur, ya da bunun vacibliyini anlamır və belə vəziyyət yaranır.

***- Siz 90-cı illərdən bəri parlamentdə təmsil olunursunuz. Parlamentdə Ali Sovetin vaxtında daha qaynar, dinamik ab-hava vardı, ya indi?***

- O vaxtlar indiki zamanı müqayisə etməkdən ötrü ölkənin o vaxtkı və indiki vəziyyətini müqayisə etmək lazımdır. Əlbəttə, orda həll olunmayan məsələlər həddindən artıq çox idi, naşılıq hər bir şeyi bürümüşdü, idarəetmədə, rəhbərlikdə qeyri-professional adamlar vardı. İndi vəziyyət tamamilə dəyişib. İkincisi, parlament də inkişaf edir. Düzdür, sovet vaxtı Ali Sovet vardı, ancaq parlament təcrübəsi yox idi. Bizdə hər bir, idarəetmə də, o cümlədən parlament də təkmilləşir.

***- Ancaq o zaman daha çox fərqli düşünən deputatlar vardı, nəinki indi. Bir sıra müxalifət partiyaları parlamentdən kənarda qalıb.***

- Müxalifət kənarda qalıbsa, təqsir özlərindədir. Fəaliyyət göstərsinlər. Deməli, onların tutduğu yol, ideyaları insanlar tərəfindən qəbul olunmur. Elə bir ideya tapsın, inandırıcı hərəkətlər etsinlər ki, camaat ardınca getsin. Bu işlərdə iqtidarı təqsirləndirmək olmaz ki...



### “Rusiya tərəfdən bizə elə bir təhlükə yoxdur”

***- Dekabr ayı sovetlərin dağılmasının rəsmiləşdirildiyi aydır. Ancaq yenidən SSRİ-nin dirçəldilməsi layihəsi var. Təhdidlərin qarşılığında Azərbaycan imperiyanın bərpası prosesində yer ala bilərmi?***

- Mümkün deyil, o məsələlər birmənalıdır. Bu məkanda müəyyən inteqrasiya məsələləri ola bilər. Ancaq Azərbaycan heç bir bloklara qoşulmur. Eyni zamanda hər bir ölkənin təklikdə yaşaması çox çətindir. Azərbaycan İsveçrə deyil ki... Tarixən neytral mövqe tutub və dünya onu qəbul edir. Azərbaycan əslində Qoşulmayanlar Hərəkatının tərkibindədir. İkincisi də hələ bilinmir ki, Avrasiya Birliyinin axırı nə olacaq. O, heç də uğurlu bir layihə deyil. İndidən onun tərkibindəki ölkələr arasında da münaqişəli, həll olunmayan problemlər var. Azərbaycan da heç bir bloka daxil olmur. Yalnız qoşulmayan ölkələrin tərkibindədir. Hesab edirəm ki, bu, kifayətdir, Azərbaycan üçün ən optimal yoldur.

***- Azərbaycanla Qərb arasında münasibətlər haqda nə deyə bilərsiniz?***

- Kimisə qınamaqdan ötrü gərək o qınaqdan xeyli üstün olasan. Amerikada olan biabırçılıqları qoyub burda...Deyir “öz gözündə tiri görmür, başqasının gözündə tük axtarır.” Bu, düzgün mövqe deyil. Sən kimisə tənqid etməkdən ötrü hökmən gərək həmin sahədə tənqid etdiyin adamdan üstün olasan. Mən hesab edirəm ki, rəsmi Bakının mövqeyi tamamilə düzgündür. Niyə onlar öz mövqelərini deməlidirlər, biz yox?

***- Parlamentin orqanı olan “Azərbaycan” qəzeti ABŞ-ı vaxtilə Azərbaycanda dövlət çevrilişi hazırlamaqda ittiham etdi...***

- İş burasındadır ki, hər bir ölkə, lap elə bizə ən yaxın ölkə bizdən nəsə qopartmaq istəyir. Misal üçünb məlum oldu ki, Amerika ən yaxın tərəfdaşlarının telefon danışıqlarını izləyib yazırmış. Hətta Merkelin də. Ona görə yox ki, sabah orda çevriliş, ya başqa nəsə etmək istəyir. Sadəcə ondan istifadə edib sabah həmin ölkəyə, hakimiyyətə təzyiq etmək istəyirlər.

***- Bəs təzyiq etməklə Azərbaycandan nə istəyirlər?***

- Azərbaycanın nefti var, istəyirlər bu nefti daha ucuz versinlər. Elə bizə “qardaş” deyən ölkələri götürək, hamısı istəyir ki, Azərbaycanın hesabına bəhrələnsin. Odur ki, başlayırlar oranı-buranı qurdalamağa. Ancaq Azərbaycanda cəmiyyət kifayət qədər savadlıdır, ölkədə gedən prosesləri düzgün və müsbət qiymətləndirir. Əlbəttə, nöqsanlar da var, bunu heç kəs inkar etmir. Ancaq bütövlükdə Azərbaycan cəmiyyəti bu iqtidarı dəstəkləyir. Çevriliş-zad söhbəti boş söhbətdir.

***- Necə bilirsiniz, Amerika Rusiyanın yenidən Azərbaycanı ilhaq edəcəyindən ehtiyatlanırmı, buna görə narahatdırmı?***

- Vallah, onu Amerikadan soruşmaq lazımdır. Ancaq mən hesab edirəm ki, Rusiya tərəfdən bizə elə bir təhlükə yoxdur.

***- Yəni yenidən 20 Yanvara bənzər hadisələr təkrarlana bilməz? Yeri gəlmişkən, 90-cı il hadisələrinin 25 illiyi ilə bağlı parlament günahkarların məsuliyyətə alınması ilə bağlı növbəti dəfə müzakirələr aça bilərmi?***

- Deyə bilmərəm. Ancaq məncə, bu dəqiqə o məsələləri çözələməyin mənası yoxdur.

***- Azərbaycanın iki vətəndaşı erməni girovluğundadır. Onlardan biri də Rusiya vətəndaşıdır. Sizin də Rusiyadakı müəyyən dairələrlə yaxın münasibətləriniz var. Necə etmək olar ki, girovları azad edək?***

- Bu məsələni Rusiyaya ünvanlamaq düzgün olmazdı. Düzdür, Rusiyanın Ermənistana çox böyük təsiri var. Ermənistan elə Rusiyanın ətəyindən dolanır. Ancaq birbaşa demək ki, Rusiya, sən get, bunu elə, Moskva heç vaxt bunu qəbul etməyəcək. Ancaq qeyri-rəsmi formatlarda da bu məsələni biz onlara çatdırırıq. Yəni insani hərəkət kimi bu şəxslərə kömək etsinlər. Rəsmi səviyyədə isə bu istiqamətdə hansısa bir hərəkət olmayıb.

***- Rusiyanın dağılacağı barədə proqnozları siz necə qarşılayırsınız?***

- (Gülərək) Rusiyanın dağılması gözlənilən deyil. Rusiya çox güclü dövlətdir, bu, müvəqqəti bir haldır. Bu kimi böhranlar vaxtaşırı təkrarlanır, bir az güclü, bir az zəif.

***- Bəs azərbaycanlıların bura kütləvi axını gözlənilləndir?***

- Əlbəttə, azərbaycanlıların orda vəziyyəti yaxşı olmayanda müəyyən qədəri məcbur olub bura qayıdacaq. Orda elə zəngin azərbaycanlılar da var ki, əməlli-başlı biznesləri var, onlar vəziyyətdən çıxmağa çalışacaqlar. Lakin oradakı azərbaycanlıların çox az bir hissəsi bura qayıda bilər.

❑ **Elşad PAŞASOY**
**FOTO: “YM”**

YENİ MÜSAVAT
N 318 (6027) 30 dekabr 2014

# Jurnalistin vəkilindən Siyavuş Novruzovun “agent” sözlərinə reaksiya

**Fuad Ağayev:** “Siyavuş Novruzov nə Rauf Mirqədirovun işinin istintaqını aparır, nə də onun AzadlıqRadiosu ilə bağlı işdən xəbəri var”



Fuad Ağayev

**AzadlıqRadiosunun Bakı bürosunun ofisində aparılan axtarışların və əməkdaşların kütləvi şəkildə istintaqa cəlb edilməsinin səbəbləri hələlik konkret açıqlanmır. Ancaq bu məsələlərlə bağlı ayrı-ayrı şəxslərin açıqlamaları var".**

Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, deputat Siyavuş Novruzov ötən həftə “mediaforum”a bununla bağlı ilginc açıqlamalar verib. O deyib ki, hüquq-mühafizə orqanları məhkəmə qərarı əsasında istənilən yerdə axtarış aparmaq səlahiyyətinə malikdir. S.Novruzov daha sonra deyib ki, Azərbaycan hakimiyyəti kimlərinsə xarici xüsusi xidmət orqanlarına məlumat ötürməsinə imkan verə bilməz: “Əgər ABŞ öz təhlükəsizliyini qorumaq üçün özünün bəyan etdiyi fundamental hüquqları qurban veribsə, belə bir addım atıbsa, biz niyə atmamalıyıq? Tam məsuliyyətlə bəyan edirəm ki, son proseslərin söz, mətbuat azadlığı ilə bağlılığı yoxdur. ”Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun həbsindən sonra çox məsələnin üstü açılıb. İndiyədək onlara bir söz deyilmirdi, indi isə bütün kartlar, xətlər açılıb və bəzi şəxslərin xarici xüsusi xidmət orqanları ilə əməkdaşlığı üzə çıxıb, onlar bir-birilərinin fəaliyyəti, hansı işlər gördükləri haqda hüquq-mühafizə orqanlarına məlumat veriblər. Onlar xarici kəşfiyyata, erməni lobbisinə işlədiklərinə görə məsuliyyətə cəlb olunublar. Xarici kəşfiyyata, erməni lobbisinə xidmət edən hər bir yer, təşkilat axtarılmalıdır".

“Yəni məsuliyyətə cəlb olunan Azərbaycan vətəndaşları ABŞ kəşfiyyatına işləyirmiş” sualına cavabında YAP-çı deputat bunları bildirib: “Əlbəttə. Belə hallar çoxdur”.

Qəribə vəziyyət yaranır, R.Mirqədirov erməni kəşfiyyatı ilə əlaqədə şübhəli bilinərək həbs edildiyi iddiaları var. Ancaq indi YAP rəhbərliyində olan deputat AzadlıqRadiosu ilə bağlı prosesdə R.Mirqədirovla bağlı işin olduğunu ehtimal edir. Üstəlik, ABŞ kəşfiyyatına işləyənlərlə bağlı ciddi ittiham var. Bütün bu müəmmaları R.Mirqədirovun vəkili necə dəyərləndirir?

**R.Mirqədirovun vəkili Fuad Ağayev “Yeni Müsavat”a bunları bildirdi:** “Siyavuş Novruzov nə Rauf Mirqədirovun işinin istintaqını aparır, nə də onun AzadlıqRadiosu ilə bağlı işdən xəbəri var. Üstəlik, hər iki işlə bağlı istintaq sirri mövcuddur. Ona görə də onun dediklərinə izahat vermək düzgün olmazdı. Əgər bu işlərlə bağlı baş prokuror , yaxud istintaq qrupunun məsul şəxsləri məlumat versəydi, həmin məlumata reaksiya vermək düzgün çıxardı. Amma burada hakim partiyanın deputatı öz mülahizələrini bildirib, bu mülahizələri isə şərh etməyə ehtiyac qalmır".

❑ **Cavid TURAN**

# Fərhad və Rafiq Əliyev qardaşları xaricdəki bizneslərini genişləndirir

## Bankdakı səhm payının satılmasının səbəbi üzə çıxır

**“Azpetrol Holding” şirkətinin keçmiş prezidenti Rafiq Əliyev “Bank of Baku” ASC-də ona məxsus iki səhm paketini satıb. Əməliyyat dekabrın 25-də Bakı Fond Birjasında baş tutub. BFB-nin məlumatına görə, birjada qeyd edilən bankın 11,160,857 manat dəyərində yaxud nominalı 15,55 manat olan səhmlərin alqı-satqı əməliyyatı baş tutub. Satılan pay bankın səhmlərinin ümumi emissiyasının 21,10%-i təşkil edir. Alıcının kimliyi haqda məlumat verilmir. Belə bir məlumat hələlik bankın saytında da yerləşdirilməyib.**



2005-ci ildə korrupsiya və vəzifə saxtakarlıqları ittihamı ilə həbs olunan Fərhad və Rafiq Əliyevlər 2013-cü ildə əfv fərmanı ilə azad olunublar. Əliyev qardaşları həbsdən çıxandan sonra Azərbaycanı tərk ediblər. Onların Londona köçdükləri haqda məlumatlar da var. “Bank of Baku”nun saytındakı məlumatlardan aydın olur ki, Rafiq Əliyev şəxsən səhmlərin 11,22 faizinə, ona məxsus olan “Azinvest” MMC vasitəsi ilə isə 9,89%-ə sahib idi. R.Əliyevin həbsinə qədər sahibi olduğu “Azpetrol” MMC bankın səhmlərinin 28,89-nə sahib olub. Bu sahiblik bu gün də qalır.

Bankın saytında yer alan 2012-ci ilə dair audit hesabatında (payçılar belə bölünür: “Nab Holding” (40%), «Azpetrol Neft Şirkəti» MMC (28,89), Rafiq Əliyev (11,22%), Elçin İsayev (10%) və «Azinvest» MMC (9,9%)...

R.Əliyevin gəliri pis olmayan bankdakı səhm payını satması suallar yaradıb. Belə məlumat var ki, R.Əliyev həbsdə olarkən bankdakı payını satmağa razılıq verib. Lakin sonradan bu razılaşma bir qədər ertələnib. Amma qüvvədən düşməyib. Azadlığa çıxandan sonra Əliyev qardaşları Azərbaycanda olan əmlaklarını sataraq ölkədən kənarda olan bizneslərini genişləndirməyə qərar veriblər. Bankdakı səhm payının satılmasının da həm də bu qərara uyğun atılan addım olduğu bildirilir.

❑ **E.HÜSEYNOV**

# KXCP qurultay qərarı verdi

**Xəzər Teyyublu:** “Parlament seçkilərinə və qurultaya paralel hazırlıq gedəcək”

**KXCP Ali Məclisinin növbəti sessiyası keçirilib. Partiyadan verilən xəbərə görə, sessiyada ictimai-siyasi vəziyyət, 23 dekabrda keçirilmiş bələdiyyə seçkilərinin nəticələri, KXCP- nin 2015-ci il fəaliyyət istiqamətləri və 2015- ci ildə keçiriləcək parlament seçkiləri ilə bağlı məsələlər müzakirə edilib. Ali Məclisin sessiyasında ictimai-siyasi vəziyyət haqqında KXCP sədri Mirmahmud Mirəlioğlu geniş məruzə ilə çıxış edib.**

Partiya sədri 2014-cü ildə vətəndaş cəmiyyəti fəallarına qarşı olan təzyiqlərdən, qanunsuz həbslərdən danışıb. Çıxışında insan haqlarının kobud şəkildə tapdanmasına, azad mətbuatın susdurulmasına toxunan M.Mirəlioğlu AzadlıqRadiosunun dekabrın 26-da qapısının möhürlənməsi və əməkdaşlarının istintaqa çağırılmasının nin yolverilməz olduğunu bildirib. Partiyanın fəaliyyətinin gücləndirilməsinin vacibliyini bildirən KXCP sədri 2015-ci ildə nizamnamə çərçivəsində qurultayın keçirilməsinin labüdlüyünü qeyd edib.

Sessiyada KXCP-nin növbəti qurultayının nizamnaməyə uyğun şəkildə keçirilməsi və 15 nəfərlik tərkibdən ibarət Təşkilat Komitəsinin yaradılması barədə qərar qəbul olunub.

**KXCP sədrinin müavini Xəzər Teyyublu “Yeni Müsavat”a bildirib ki, Ali Məclis qurultayın keçirilməsi barədə qərar versə də qurultayın konkret günü təyin olunmayıb:** “Qurultayın günü ilə bağlı Ali Məclisdə müxtəlif təkliflər oldu. 16 iyul - Xalq Cəbhəsinin yarandığı günün ildönümündə keçirilməsi təklifi də oldu. Lakin sonda qərar qəbul olundu ki, partiyanın rayon təşkilatlarının konfransları keçirildikdən sonra Ali Məclisin sessiyasında qurultayın hansı gün keçirilməsi barədə qərar verilsin. Qərarı 15 nəfərdən ibarət yaradılmış Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsi də verə bilər. Qurultayın 2015-ci ilin hansı ayında keçirilməsi rayon təşkilatlarının konfranslarının nə vaxt yekunlaşmasından və situasiyadan asılı olacaq. Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin sədri partiyanın sədri Mirmahmud Mirəlioğludur”.

“KXCP-nin Nizamnaməsində eyni şəxsin iki dəfədən artıq partiya sədri seçilməsinə məhdudiyyət varmı” sualına X.Teyyublu “bizim partiyanın nizamnaməsində belə bir məhdudiyyət yoxdur” cavabını verdi.

**“Parlament seçkisi ilində qurultay keçirilməsi KXCP-nin seçki hazırlıqlarına mane ola bilərmi” sualına isə sədr müavini belə cavab verdi:** “2015-ci il Azərbaycan üçün ictimai-siyasi əhəmiyyətli il olacaq. KXCP parlament seçkilərinə də, qurultaya da paralel olaraq ciddi hazırlaşacaq. Hesab edirik ki, əslində bu, partiyamızın həm seçkilərə, həm də qurultaya hazırlığına müsbət təsir edəcək. Rayon təşkilatlarımız daha da aktivləşəcək. Həm rayon təşkilatlarımız qurultay hazırlıqla bağlı konfranslar keçirəcək, həm də seçki hazırlıqları da həyata keçiriləcək”.

❑ **E.SEYİDAĞA**

# Bakı Təhsil İdarəsinə müdir tapılmır

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir əvəzi Elnur Əliyev vəzifəsindən azad edilib. Lent.az -ın məlumatına görə, nazirliyin informasiya şöbəsinin müdiri Elnur Əliyev həm də BŞTİ-nin müdirinin birinci müavini vəzifəsində çalışırdı. Adıçəkilən idarənin müdiri Nailə Rzaquliyeva vəzifəsindən getdikdən sonra E. Əliyevə Təhsil İdarəsində müdir əvəzi vəzifəsi həvalə olunmuşdu.**

Təhsil naziri Mikayıl Cabbarovun bu ayın əvvəlində imzaladığı əmrlə Bakı Şəhəri üzrə Təhsil İdarəsində idarəetmənin gücləndirilməsi və cari fəaliyyətinə Təhsil Nazirliyinin dəstəyinin daha da artırılması məqsədi ilə İdarəyə birbaşa rəhbərliyin həyata keçirilməsi təhsil nazirinin müavini Ceyhun Bayramova həvalə olunub.

Hazırda isə Təhsil İdarəsinə müdir təyin edilməyib. Bundan başqa, İdarədə artıq “müdirin birinci müavini” vəzifəsi də yoxdur. Məsələ ilə bağlı Təhsil Nazirliyi ilə əlaqə saxladıq. Nazirlikdən lent.az-a bildirilib ki, E. Əliyev BŞTİ-dəki vəzifəsindən uzaqlaşdırılsa da, hazırda nazirliyin informasiya şöbəsinə rəhbərlik edir.

# Xətainin icra başçısının “budka”sı qalmaqal yaradıb

## Razim Məmmədovun metronun “Həzi Aslanov” stansiyanın çıxışına qoydurduğu “budka” yolu kəsib, metroya düşüb-çıxmaqda insanlara ciddi maneçilik törədir

**Bir neçə gün öncə metronun “Həzi Aslanov” stansiyasının çıxışına gecə saatlarında “budka” yerləşdiriblər. Yüngül konstruksiyalardan hazırlanan bu ticarət köşkü metro çıxışının düz ağzındadır. İnsanların gediş-gəlişinə mane olur. Sərnişinlər metrodan çıxan kimi bu köşklə qarşılaşırlar.**

“Həzi Aslanov” stansiyası ətrafında yaşayan sakinlərin musavat.com-a verdiyi məlumata görə, həmin “budka” yolu kəsib, metroya düşüb-çıxmaqda insanlara ciddi maneçilik törədir.

Bir neçə gün öncə adıçəkilən ünvanda olaraq şikayət əsasında reportaj hazırlamışdıq. Bu günə qədər həmin “budka”nın kim tərəfindən oraya yerləşdirildiyi məlum deyildi. Aldığımız məlumatlara görə, həmin köşk dönərxana olaraq fəaliyyət göstərəcək. Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədovunun tapşırığı əsasında bu obyektin açılmasına icazə verilib. Baxmayaraq ki, həmin yerdə “budka” olmasına həm metropoliten, həm də sakinlər narazıdır.

**Köşk metronun çıxışında yerləşdirildiyi üçün vətəndaşların metroya giriş və çıxışına mane olur. Bunu musavat.com-a açıqlamasında “Bakı Metropoliteni” QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev də deyib:** “Kimsə gecə vaxtı gətirib, o ”budka"nı oraya qoyub. Əməkdaşlarımız ərazidə olublar və maraqlanıblar. Amma “budka” sahibinin kim olduğunu hələlik öyrənə bilməmişik. Köşk metroya giriş və çıxışa da mane olur. Ona görə də biz də bu məsələni araşdıracağıq".

Bu, Xətai Rayon İcra Hakimiyyətinin icra başçısı Razim Məmmədovla bağlı ilk şikayət deyil. R.Məmmədov Xətai rayonu ərazisində satmadığı yer qoymayıb. M.Hadi köşəsində yaşıllıqları məhv edib iş adamlarına satıb. Hazırda sözügedən küçədə boş yer qalmadığı üçün indi də metro çıxışlarını satır.




İnanırıq ki, icra başçısının bu tamahı axırda onun öz başında çatlayacaq. Çünki R.Məmmədov haqqında ən çox şikayət edilən icra başçısıdır. Bir vaxtlar Nizami rayonunun sabiq icra başçısı Mehbalı Əliyev də bu cür biabırçılıqlar edərdi. Keçmiş İH başçısı Nizamidə satmadığı yer, məhv etmədiyi yaşıllıq buraxmırdı. Axırda ölkə rəhbərliyi onu sözün əsl mənasında işdən qovdu.

Yəqin Razim Məmmədovun yerə-göyə sığmayan tamahı bir gün onun da sonunu gətirəcək.

**Mövzunu davam etdirəcəyik.**

❑ **Məhəmməd TÜRKMƏN**
**Foto müəllifindir**





# Ümid 2014-cü ilin yekunlarını qiymətləndirdi

**Ümid Partiyasının Rəyasət Heyəti ilin son toplantısını keçirib. Toplantıda 2014-cü ilin yekunları və partiyanın 2015-ci ildə fəaliyyət istiqamətləri müzakirə olunub.**

Tədbirdə bildirilib ki, ilin əvvəlindən başlayaraq bələdiyyə seçkilərinə hazırlıqla bağlı partiya funksionerləri bölgələrə səfərlər ediblər. Yerli fəallar və namizəd olacaq şəxslərlə görüşlər keçirilib. Bir neçə bölgədə olan görüşlərdə partiya sədri, millət vəkili İqbal Ağazadə şəxsən iştirak edib.

Partiya təşkilatlanma işini də davam etdirib. Yeni özək təşkilatları yaradılıb. Səbayel, Binəqədi, Tovuz rayon şöbələri, Qadınlar Təşkilatı növbəti konfranslarını keçirib, partiya sıralarına yeni üzvlər qəbul edilib. Struktur dəyişiklikləri olub, Mərkəzi Aparatda yeni şöbələr yaradılıb.

Seçkilərdə iştirak edəcək namizədlərin ilkin siyahısı hazırlanıb. Seçkilərə start veriləndə artıq partiya 900 bələdiyyə subyekti üzrə 4000 namizədlə mübarizə aparmaq üçün hazır olub. Təəssüflər olsun ki, hakimiyyətin apardığı seçki siyasəti namizədlərin böyük əksəriyyətinin seçkilərdə iştirakına imkan verilməyib. Məlum səbəblərdən Ümid Partiyasının çox az sayda namizədi seçkilərə qatıla bilib və seçkidə qalib çıxan namizədləri olub.





Qeyd olunub ki, seçkilərin necə və hansı formada keçirilməsi partiya üzvlərini məyus etməməlidir. Qarşıdan 2015-ci ilin parlament seçkiləri gəlir. Parlament seçkiləri ölkənin taleyüklü məsələlərindən biridir. Növbəti ildə partiya təşkilatlanma işini davam etdirməli və parlament seçkilərinə ciddi şəkildə hazırlaşmalıdır.

Sonda millət vəkili, Ümid Partiyasının sədri İqbal Ağazadə xalqı Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib.





**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

# İqbal Ağazadə xalqı təbrik etdi



*Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə xalqımızı Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib.*

*Təbrikdə deyilir:*

*"Hörmətli həmvətənlərim!*

*Sizi 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və qarşıdan gələn Yeni il münasibətilə təbrik edir, hər birinizə uzun ömür, cansağlığı, ailə səadət, işlərinizdə uğurlar arzulayıram.*

*1988-ci ildə Azərbaycanda başlayan xalq hərəkatının gedişində 31 dekabr 1989-cu ildə Araz çayı boyunca uzanan və bizi cənublu soydaşlarımızdan ayıran tikanlı məftillərin sökülməsi xalqımız üçün önəmli bir tarixə və birlik rəmzinə çevrildi. Həmin gün istər Quzeyli, istər Güneyli, istərsə də dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız arasında həmrəylik günü kimi qeyd edilir.*

*Ötən il Güney Azərbaycanda, Borçalıda və digər tarixi Azərbaycan torpaqlarında yaşayan soydaşlarımız üçün də müxtəlif olaylarla yadda qaldı. Milli haqları üçün Tehran rejiminin zindanlarında məhbəs həyatı sürən soydaşlarımız ciddi iradə nümayiş etdirərək 2014-cü ildə başqa bir qəhrəmanlıq nümunəsi sərgilədilər. İlin bu son anlarında onların timsalında dünyanın ayrı-ayrı nöqtələrində, o cümlədən planetin 70-dən artıq ölkəsində Azərbaycan ruhunu yaşadan bütün bacı və qardaşlarımızı Milli Həmrəylik Günü və yeni il münasibətilə təbrik edir, milli haqları uğrunda mübarizə aparan soydaşlarımızın hər zaman yanında olacağımızı bir daha bəyan edirik.*

*2015-ci ildə xalqımıza sülh, əmin-amanlıq, hakimiyyətin münasibətlər sistemində yeni dövrün başlanmasını, dialoq, barış, həmrəylik, siyasi məhbusların azad olumasını, ölkəmizin demokratikləşməsini, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsini, güneyli soydaşlarımızın öz haqlarına qovuşmasını diləyirəm.*

*Bir daha həmvətənlərimin hər birini Milli Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edir, 2015-ci ilin millətimizə, dövlətimizə, xalqımıza xeyirli, uğurlu olmasını diləyirəm.*

*Sizləri barış və dialoqa, milli həmrəyliyə çağırıram. Azərbaycanımızın nicatı, xalqımızın rifahı və əmin-amanlığı, dövlətçiliyin qorunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi bunu tələb edir.*

*Bayramınız mübarək!"*

*Ümid Partiyasının sədri,*
*Millət vəkili*
*İqbal Ağazadə*



# Burda gülməli nə var?

Zamin HACI
zaminhaci@gmail.com

**“Toyda ağlamağım gəlir,**
**Yasda gülmək tutur məni.**
**Yasda sevinirəm, sağam!..**
**Toyda ölmək tutur məni".**
(R.Rövşənin “Tərs nəğmə” şeirindən)

**Dünən mənə xəbər verdilər ki, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar müəllim hardasa haqqımda deyinibdir. Mənim hərdən onu da tənqid eləməyimə dözməyibdir. Belə fikirlər səsləndirib ki, guya mən yumor yazıram, halbuki onun haqqında yazdıqlarım heç gülməli deyildir.**

Açığı, mənim heç vaxt iddiam olmayıb ki, yazdıqlarım gülməlidir, bilmirəm Anar müəllim bunu hardan çıxardıbdır. Hətta kimsə “gülməli yazılar müəllifiyəm” tipli bir cümləmi tapıb çıxartsa indiyə qədər işlədiyim qəzetləri hökumət bağladıqdan sonra hesablarında qalan qonorarlarımı o şəxsə bağışlayaram.

Ümumən AYB sədrinə gələndə, onun haqqında heç gülməli yazmaq da mümkün deyil, nə yazsan ağlamalı alınır. Məsələn, gözünüzün qabağına 80 yaşlı bir qəlyanlı yazıçı gətirin, bu adam azı 70 ildir nəsə yazır, pozur, hər cür hökumətlərə qulluq edir, dövlətdən uşaq qorşokundan tutmuş villaya qədər hər şey alıb, ancaq ortada bir dənə də maraqlı əsəri yoxdur. İnanmırsınızsa xalq arasında sorğu keçirdin. Uca millətimiz Anar müəllimi “Təhminə haqda kinonu yazan” adam kimi tanıyır. Yəni bir qocaman yazıçı ki, dillərdə dastan əsas sitatı melodramadan cümlə şəklində “Tələsmə, Zaur, tələsmə” ola, onun haqqında necə gülməli yazmaq mümkündür? Buna gülmək ən alçaq hərəkət olardı. Əksinə, bu yaradıcılığa yaxşı bir ehsan vermək lazımdır, molla, ağıçı arvadlar çağırıb mərasim qurulmalıdır. Təbii, əndazəni aşmamaq şərtiylə, çünki indi hökumətin qərarı var, gərək ehsan bir qədər sadə olsun, təvazökar olsun. Anar müəllim isə həmişə hökumətlərin hər bir qərarına can-başla əl çalmış adamdır, öz yaradıcılığının ehsanı zamanı da dövlətçiliyə riayət edəcəyinə şübhəniz olmasın.

Bizim ölkədə tək bu adam deyil, başqa adamlar, o cümlədən hadisələr hamısı tamamilə ciddi, ağlamalıdır. Misal üçün, Anar müəllimin adaşı olan bir Anar Əliyev var idi, vaxtilə AzadlıqRadiosu araşdırma aparıb neft pullarımızın, Dövlət Neft Fondu vəsaitlərinin xeyli hissəsinin bu uydurma ad altında basılıb yeyildiyini aşkara çıxartmışdı. Hökumətin qisasçı cavab atəşiylə “Azadlıq” radiosunun Bakı ofisi susduruldu, dünən isə mən belə bir xəbər oxudum: “Anar Əlizadə ilin biznes adamı adını almışdır”. Soyadı Əlizadəyə çevrilib, üstəlik də bütün real və xəyali biznesmenlərimizi ötərək ilin adamı olubmuş.

İndi buna necə gülmək olar? Gülərsən, səni də tutub zindana salarlar. Ən yaxşısı ağlamaqdır. Ağlayan adamı hətta əfv edirlər.

Neft Fondu demişkən, bugünlərdə onun yeni ofisinin açılış mərasimi keçirilib. İçində pul-zad qalmasa da babat binası varmış. AzərTAc xəbər verir ki, Neft Fondumuzun yeni binasının tərtibatı... bölgələrimizdəki xalça sənətinə uyğun aparılıb, binada tar-kaman muzeyi, restoran, hətta “qış bağı” da yaradılıbdır. Bağ-bağat doğrudan lazımdır, çünki neft qurtaranda qarpız-yemiş, boranı, armud, fındıq becərməyin metodlarını bilməyimiz vacib olacaq. Bəlkə o zaman fondun adını dəyişib Dövlət Qoz Fondu qoyarıq. O cümlədən, DNF-in binasında xalçalar və kamançanın qoyulması uzagörən dövlət siyasətidir, çünki neft pullarının başına daş salınandan sonra xalçanın üstündə kaman çalıb ağlaşmaq lazım gələcəkdir. Hələlik, Anar müəllim demişkən, “tələsmə, Zaur, tələsmə”...

Son 3-4 gündə Bakı şəhərində 2 yerdə - Yasamal və Nərimanov rayonlarında gözəgörünməz parkların açılış mərasimləri də olmuşdur ki, bunları hansı xəbər kateqoriyasına daxil edəcəyimi hələ bilmirəm. Yəni, ağlamalı desək, ağlamalı deyil, çünki ali rəhbərlik səviyyəsində parkların açılış törəni olub, video-foto çəkilib, bunlar hamısı internetdə durur. Gülməli də deyil, çünki xəbərlərin başlığı “Park açıldı” olsa da şəkillərdə heç bir ağac yoxdur! Yalnız daş, metlax, mərmər döşənmiş, ara-bərəsinə ot əkilmiş açıq sahələr görünür. Biz isə elə bilirdik parkda ağac da olur. Bəlkə də ağac var, meşə qədər sıxdır, amma bizə görünmür?

Xahiş edərdik gələn dəfə xəbəri “çəmənlik açıldı” şəklində versinlər. Bu da qəbulumuzdur. Otluqda uzanıb çiçək qırpa-qırpa ağlaşarıq.




# “Müsavat parçalanır” iddiası yenidən gündəmə gəldi

## Vurğun Əyyub onun Məclis üzvlüyündən kənarlaşdırılması ilə bağlı məsələyə münasibət bildirdi; partiyanın rəhbərliyi qurultaydan sonra Müsavata üzvlərin sayını açıqladı

**Dekabrın 29-da Müsavat Partiyasının başqanı Arif Hacılı sərəncam imzalayıb. Sərəncama əsasən, Nüşabə Sadıxlı Müsavat Partiyası Məclisinin sədri seçilməsi ilə əlaqədar olaraq Müsavat Partiyası başqanının müavini vəzifəsindən azad edilib.**

Nüşabə Sadıqlı dekabrın 27-də Müsavat Partiyası Məclisinin sessiyasında Məclisə sədr seçilib. Məclisin sessiyasında partiyanın keçmiş başqanı İsa Qəmbərin çıxışında 3-5 müsavatçını hakimiyyətə işləyən mövqe sərgiləməkdə suçlaması son günlərin müzakirə edilən mövzusuna çevrilib. Başqanlığa sabiq namizəd Qubad İbadoğlunun İsa Qəmbərə cavab olaraq verdiyi “Onlar bizim üçün fişəngə bənzəyir, həm özləri və həm də parlaq izləri çoxdan sönüb. Ona görə də harda və nə deməklərinin mənası qalmır” açıqlaması isə bəzi qüvvələrin və media orqanlarının yenidən “Müsavat Partiyası parçalandı, Müsavatda parçalanma başladı” kimi rəylər yaymasına səbəb olub. “Azadlıq” qəzeti dünənki sayında bu mövzuya geniş yer ayırıb. Qəzetin dərc etdiyi məqalədə Müsavat Partiyasının parçalandığı qeyd olunur.

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah isə bildirdi ki, Müsavatın parçalanacağı proqnozunu verən, bunu arzu edənlərin proqnoz və arzuları puça çıxdığı üçün yenə cəmiyyətdə yanlış rəy yaratmağa çalışırlar:** “20 ildən artıqdır Müsavat Partiyasının opponentləri və Müsavatı özünə düşmən hesab eləyənlər bu partiyanın parçalanması, parçalanacağı haqqında proqnozlar verirlər, arzularını ifadə edirlər. Hər dəfə də məyus olurlar. Müsavat Partiyasının qurultayından sonra müşahidə olunan narazılıqların parçalanma müstəvisinə keçmədiyi artıq qətiləşib. Hər hansı bir parçalanma baş vermədi. Bu gündən sonra da baş verməsi ümumiyyətlə gözlənilmir. Hansısa mətbuat orqanlarının və yaxud da özünü siyasətçi hesab edən şəxslərin, bəzi təşkilatların Müsavat Partiyasında parçalanma olacağı proqnozları tamamilə iflasa uğradı. Proqnozlarının düz çıxmadığını görüb indi yenidən eyni əsassız proqnozları verməkdə, cəmiyyətə yalan informasiyalar, şərhlər təqdim etməkdədirlər. Partiya daxilindəki polemika, fikir müxtəlifliyi, tənqidi mühit ümumiyyətlə belə bir siyasi mühitdə fəaliyyət göstərməyənlər üçün faciə görüntüsü yaradır. Çünki özləri belə bir mühitdə fəaliyyət göstərməyiblər, göstərmirlər. Monoton bir siyasi mühitdə, tənqidin olmadığı bir vəziyyətdə siyasi fəaliyyət göstərənlərin ruporu kimi tanınan mətbuat orqanları da belə fikir müxtəlifliyinə, demokratik mühitə rast gələndə bunu parçalanma kimi qəbul edir və çoxdandır ki, irəli sürdükləri proqnozlarının reallaşacağını düşünürlər. Arxayın olsunlar Müsavat Partiyasında heç bir parçalanma olmayıb və olmayacaq”. **E.Fəttah dediklərinin sübutu kimi konkret rəqəmlər də göstərdi:** “Qurultaydan 3 ay keçib. Bu müddətdə partiyadan 24 nəfər özü istefa verib, 3 nəfər isə xaric edilib. Amma 3 ay ərzində Müsavat Partiyası üzvlüyünə qəbul olunanların sayı isə 100 nəfərdən artıqdır. İstənilən jurnalist partiyanın təşkilat şöbəsindən partiyaya il ərzində daxil olanlarla, xaric olanların statistikasını götürsə, asanlıqla müəyyən edə bilər ki, üç ay ərzində partiyadan 24 nəfərin istefası adi statistik rəqəmdir. 24 nəfərin partiyadan gedişini parçalanma adlandırmaq qeyri-ciddilikdir”.

**Narazılardan olan Vurğun Əyyub isə APA-ya bildirib ki, müsavatçıları hakimiyyətə işləməkdə ittiham etmək yanlışdır:** “Əgər doğrudan da, əllərində belə bir fakt varsa, onu ictimaiyyətə açıqlamalıdırlar. Əks halda, böhtançı adını qazanacaqlar”.

**V. Əyyub onun Məclis üzvlüyündən kənarlaşdırılması ilə bağlı başqan Arif Hacılı tərəfindən məsələ qaldırılmasına da münasibət bildirib. O, bir daha bəyan edib ki, partiyada heç bir orqan legitim deyil:** “Onların nə qərar verməsi məni maraqlandırmır. Adamı olduğu yerdən çıxarırlar. Mən özümü Məclis üzvü hesab etmirəm və Məclis qeyri-legitimdir. Mən təklif edirəm ki, əvvəlcə Müsavat Məclisinin legitimləşməsi istiqamətində addımlar atılsın. Əgər hesab edirlərsə legitimdirlər, onlara uğurlar arzu edirəm”.

Vurğun Əyyubun “adamı olduğu yerdən çıxarırlar” açıqlaması Arif Hacılının onun Məclis üzvlüyünə xitam verilməsi üçün qanuni əsas yarandığı haqda dediklərinin əsaslı olduğunu təsdiqləyən açıqlama kimi qiymətləndirilir. Qeyd edək A.Hacılı Məclisin sessiyasında bildirib ki, Vurğun Əyyub özünü Məclis üzvü saymır və iclaslara qatılmır, bu fakt isə onun Məclis üzvlüyünün ləğvi üçün əsasdır.

Müsavat Məclisinin üzvü Mustafa Hacıbəyli isə İsa Qəmbərin müdafiəsinə qalxıb. M.Hacıbəyli özünün facebook səhifəsində yazıb ki, Qubad İbadoğlu İsa Qəmbəri sönmüş fişəngə bənzətməklə artıq qırmızı xətti keçib.

❑ Etibar SEYİDAĞA




# Həbsdəki müsavatçı qardaşlara qəzet verilmir

## Raqif Kərimli: “Əsas şikayətləndikləri məsələ qəzetlərin verilməməsidir”

**Hazırda həbsdə olan Müsavat başqanının müavini Fərəc Kərimli və qardaşı Sirac Kərimliyə təcridxanada qəzet verilməsində problem yaradılır. Artıq bir həftədən çoxdur ki, qardaşlara mətbuat verilmir. Rəhbərlik təcridxanaya qəzetlərin göndərilmədiyini əsas göstərir.**

Fərəc və Sirac Kərimli qardaşları və yaxınları bunu bəhanə kimi qəbul edirlər.

Bu barədə musavat.com-a qardaşların atası Raqif Kərimli məlumat verib: “Dekabrın 28-də Fərəc və Sirac zəng etmişdi. Əsas şikayətləndikləri məsələ qəzetlərin verilməməsidir. Dedilər ki, təcridxana rəhbərliyi qəzetlərin göndərilmədiyini bəhanə gətirir. Keçən həftə də qəzet verilməyib. Siracın ailəsi və qardaşım görüşə getmişdi. Saxlanma şəraitlərindən şikayətləri yoxdur. Siracın artıq istintaqı yekunlaşıb. Amma məhkəmə barədə elə bir xəbər yoxdur”.

Xatırladaq ki, Fərəc və Sirac Kərimli qardaşları bu ilin iyulunda həbs ediliblər. Hər iki qardaşa qarşı Cinayət Məcəlləsinin 234.4.3 maddələri ilə (kütləvi narkotik maddələri əldə etmə, saxlama və satma) ittiham irəli sürülüb. İrəli sürülən maddə üzrə onları 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir. Dekabr ayında qardaşların həbs müddəti fevrala qədər uzadılıb.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 318 (6027) 30 dekabr 2014



# Bakı-Vaşinqton münasibətləri daha da gərginləşir

## Novruz Məmmədov yenə ABŞ rəsmilərini ittiham etdi; Azərbaycandakı vəziyyət Amerikada müzakirəyə çıxarılır

**2014-cü il Azərbaycan hakimiyyəti ilə ABŞ arasında gərginlik şəraitində yekunlaşır. Belə görünür ki, növbəti il bu gərginliklə də başlayacaq. İlin ilk ayında-yanvarın 12-də Vaşinqtonda ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondu Azərbaycandakı son vaxtlar müşahidə olunan çoxsaylı siyasi həbslər, AzadlıqRadiosunun Bakı bürosunun bağlanmasından sonra yaranmış vəziyyəti müzakirəyə çıxaracaq.**

**Bu barədə məlumat sözügedən təşkilatın saytında yerləşdirilib. Məlumatda bildirilir ki, Azərbaycanda hazırda bu vaxta qədər olmayan səviyyədə müxalif düşüncəli insanlara qarşı repressiya siyasəti aparılır:** "Əvvəlki dövrlərdə də Azərbaycanda insan hüquq və azadlıqları ilə bağlı vəziyyət yaxşı deyildi. Müxalif düşüncəli insanlara qarşı həbslər, saxlanmalar, onlara qarşı "qara piar" kampaniyalarının aparılması çox geniş miqyas alıb. Görkəmli jurnalistlərin, hüquq müdafiəçilərinin, siyasi fəalların həbsləri qorxulu vəziyyət yaradıb. Azərbaycanda aparılan repressiya siyasəti qonşuluqda yerləşən ölkələrdə də eyni tipli siyasətin aparılması ilə nəticələnə bilər. Yaranmış vəziyyət bizi belə bir tədbiri təşkil edərək, Azərbaycandakı mövcud şəraiti və çıxış yollarını müzakirə etməyə vadar edir".

Məlumatda tədbirdə çıxış edəcək adamlar haqqında da xəbər verilir. Massaçusets Universitetindən tarix professoru Odri Alşdat, siyasi təhlilçi Ketrin Kozman, Demokratiyaya Mili Dəstək Fondunun nümayəndəsi Miryam Lanskoy, ABŞ dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə köməkçisinin müavini Tomas Melia və azərbaycanlı tarixçi alim Altay Göyüşov tədbirdə çıxış edəcəklər.

Qeyd edək ki, həmin tədbirdə çıxış edəcəyi bildirilən Tomas Melia Azərbaycan hakimiyyətinə sərt münasibəti ilə seçilən ABŞ rəsmilərindəndir. Rəsmi Bakının da bu şəxsə münasibəti adekvatdır.

Azərbaycan hakimiyyətinin müxtəlif təmsilçilərinin isə xeyli vaxtdır başlayan anti-ABŞ təbliğatı davam edir.

**Prezident Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov ABŞ-ın ATƏT-dəki səfiri Daniel Bayerə cavab verib. Novruz Məmmədov özünün tvitter hesabında yazıb:** "Təəssüf ki, ABŞ-da bəzi rəsmilər və diplomatlar ölçü hissini tamam itiriblər. Bəlalərindən biri cənab Bayer unudur ki, zorakılığın da, korrupsiyanın da, həbslərin də əsl vətəni elə öz ölkəsidir.

Görünür, ABŞ-ın ATƏT-dəki nümayəndəsi cənab Bayerin ölkəsində baş verən hadisələrdən heç xəbəri yoxdur. Elə bir neçə gün əvvəl Senatın Kəşfiyyat Komitəsində gedən dinləmələrlə tanış olsaydı, yaxşı olardı. Onda anlayardı ki, tvitterdə yazdıqlarını oxuyanda ilk yada düşən ölkə elə ABŞ olur.

Cənab Bayer qərəzli fikirləri ilə ABŞ-la Azərbaycan arasındakı münasibətlərə zərbə vurmağa çalışır".

ABŞ-la münasibətlərin kəskinləşdirilməsinin arxasında nələrin dayandığı haqda ən müxtəlif versiyalar irəli sürülür.

**Bu mövzuda suallarımızı cavablandıran "Şərq-Qərb" Araşdırmaları Mərkəzinin rəhbəri Ərəstun Oruclu hesab edir ki, ABŞ-la münasibətlərin bu qədər gərginləşməsində bir neçə amil dayana bilər. Amillərdən, ehtimallardan biri bu ola bilər ki, Azərbaycanın təklənməsi siyasəti aparılır və bu siyasət Rusiyanın təhriki ilə həyata keçirilir:** "Rusiya rəsmi Bakının sıralarında olan ona loyal şəxslərin əli ilə bu siyasəti çox məharətlə həyata keçirir. Reallığa daha çox bu versiya bənzəyir. İkinci versiya ondan ibarətdir ki, Azərbaycan hakimiyyəti bu cür demarşlar eləməklə Vaşinqtonu faktiki olaraq danışıqlara çəkmək istəyir. Yəni hansısa yüksək səviyyəli görüşlər təşkil eləmək, 2015-ci il parlament seçkiləri, 2018-ci il prezident seçkiləri ilə bağlı hakimiyyətə lazım olan bəzi razılıqları almaq istəyirlər. Bir ehtimal da budur ki, rəsmi Bakı Qarabağ məsələsində ABŞ-dan müəyyən dəstək almaq istəyir. Ola bilsin ki, hələ bu məsələlərlə bağlı razılıq ala bilmədikləri üçün ABŞ-a qarşı təbliğat aparılır. Bu da versiyalardan biridir. Əgər bu versiya reallığı özündə əks etdirirsə, təzyiq metodları ilə ABŞ-ı danışıqlarla razı salmaq, razılaşmasını almaq qeyri-mümkündür. Təcrübə göstərir ki, bu metodlar Vaşinqtonun sərt ritorikaya keçməsinə gətirib çıxarır. 2014-cü ildə prezident Barak Obama ad çəkməklə Azərbaycanın ünvanına çox sərt tənqidi fikir səsləndirdi. Bu, ilk dəfə idi.

ABŞ rəsmilərinin son vaxtlar açıqlamalarından görünür ki, Vaşinqton danışıqlardan imtina etmir. Sadəcə olaraq, Vaşinqton danışıqlar mövzusu olaraq əsas məsələ kimi insan haqları məsələsini görmək istəyir. Bu isə Azərbaycan iqtidarını qane etməyən mövzudur".

**Ekspert bildirdi ki, Azərbaycanın xarici siyasətində sərt, bəzən də aqressiv bəyanatlar təkcə ABŞ-a qarşı deyil, Avropanın iri ölkələrinə, Avropa Birliyinə qarşı da müşahidə olunur:** "Son vaxtlar biz gördük ki, hətta Azərbaycanın çox yaxın tərəfdaşlarından sayılan İsrailə qarşı da sərt bəyanat verməkdən çəkinmirlər. Bütün bunları müşahidə edəndə belə bir təsəvvür yaranır ki, elə bil Azərbaycanın təklənməsinə hesablanan siyasət həyata keçirilir. Amma Qərb də saktice oturub sifarişçi Rusiyadır deyə buna məhəl qoymaya bilməz. Çünki söhbət təkcə sərt ritorikadan getmir, söhbət artıq konkret addımlardan gedir. Məsələn, bu gün AzadlıqRadiosu Rusiyada fəaliyyətini davam etdirir, amma Azərbaycanda bağlanır. Düşünmək ki, bu fonda Vaşinqton Bakının istədiyi şəkildə danışıqlara gedəcək, zənnimcə, bu, reallaşması mümkün görünməyən məsələdir".

**Ə.Oruclu son olaraq dedi ki, ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondunun təşkilatçılığı ilə yanvarın 12-nə Azərbaycandakı vəziyyətlə bağlı tədbirin təyin olunması da artıq Vaşinqtonun əks addımlara hazırlığı kimi dəyərləndirilməlidir:** "Mən istisna eləmirəm ki, biz yaxın zamanlarda rəsmi Vaşinqtonun konkret hərəkətə keçməsinin şahidi ola bilərik. Yəni burda sanksiyalar da ola bilər, hansısa başqa təzyiq xarakterli addımlar da ola bilər. ABŞ-ın əlində çoxlu sayda mexanizmlərin olduğu bəllidir. Rusiyaya tətbiq olunan cəza tədbirləri göstərdi ki, Qərbin imkanları yetərincə rəngarəngdir və effektlidir. Çünki Rusiya kimi nəhəng bir dövlətin yarım il ərzində iqtisadiyyatını çökdürdü. Deməli, Azərbaycana da istədikləri zaman ciddi təsir göstərə bilərlər".

❑ **E.SEYİDAĞA**

# Bir az yumşaq repressiya



**Xalid KAZIMLI**

**Yox, şişirtməyə ehtiyac yoxdur, bu, 37-ci il repressiyası deyil, 2014-cü il repressiyasıdır. 1933-38-ci illərdə böyük SSRİ dövlətində aparılan kütləvi cəzalandırma kampaniyasının nə miqyası, nə amansızlığı bu cür olmayıb, qat-qat müdhiş olub.**

Heç bir günahı olmayan milyonlarla insan ya güllələnib, ya gedər-gəlməzə göndərilib, bir daha geri qayıtmayıb, ya da 20 ildən sonra qayıdıb gələ biliblər.

Repressiya olunanların çoxunu vəkilsiz-filansız, 3-5 dəqiqənin içində mühakimə ediblər və ləngitmədən də divara söykəyiblər.

Haqq-nahaq cəzalandırılan şəxslərə qahmar çıxan, onlar üçün müdafiə komitələri yaradan olmayıb, hətta bir çoxlarının üzünə durmayanları belə əlli-ayaqlı aparıblar.

Bu baxımdan indi ölkədə aparılan repressiya tədbirlərini 75-80 il öncənin analoji cəzalandırması ilə müqayisə etmək o ağır illəri yaşayanlara haqsızlıqdır. Onların dövrünün zülmü başqadır, bizimki başqa.

İndinin repressiya qurbanları təqsirli-təqsirsiz olmalarından asılı olmayaraq, güllələnmilər. Eyni maddələrlə 37-də mütləq güllələyərdilər.

Onları içəridə uzun müddət, 20-25 il saxlamırlar. Çoxu 1-2 ilə azadlığa buraxılır. Hamısının müdafiə komitələri var, işləyirlər. Bir çoxu haqsızlığa məruz qaldığını sonradan Avropa İnsan Haqları Məhkəməsində sübut edərək dövlətdən kompensasiya da alırlar.

Bir sözlə, dövran çox dəyişib. Məgər 37-ci il repressiyası dövründə siyasi motivlərlə tutulanların müdafiəsi üçün dövrü mətbuatda bir kəlmə yazı yazmaq, həbsin qanunsuzluğunu şübhə altına almaq olardımı? Olmazdı. Bu barədə nəinki yazanı, hətta düşünəni də tutub repressiya qurbanı edərdilər.

Odur ki, günümüzün bu acı reallığını çox şişirtməyə ehtiyac yoxdur. Hər şeyi öz adı ilə çağıraq.

Hazırda ölkəmizdəki durumun adı budur. Haqsızlıq, ədalətsizlik, bir çox siyasi məhbuslara qarşı amansızlıq, insafsızlıq, şər-böhtan var. Mövcud hakimiyyətin məqsədi onları 37-ci ildəki kimi kütləvi şəkildə məhv etmək deyil, "islah etmək"dir.

Burada "islah" sözü ona görə dırnaq içərisindədir ki, söhbət həqiqi islahdan getmir, "sındırmaq"dan, "zərərsizləşdirmək"dən gedir.

2014 repressiyası ilə 1937-ci il repressiyasının əsas bənzər cəhəti odur ki, o vaxt da, indi də bu cəzalandırma tədbirləri hakimiyyətin möhkəmlənməsi üçün aparılırdı. 1933-38-ci illərdə məqsəd avtoritar hakimiyyətin təhlükəsizliyini və uzunömürlülüyünü təmin etmək idi, indi də elədir.

Sadəcə, o vaxt bu məqsədə çatmaq üçün milyonlarla insan məhv edilməli idisə, indi 70-80 adamı cəzalandırmaq kifayət edir.

O vaxtlar cəzalandırmanın kütləvi xarakter daşıdığı illər olubsa, indi bir az fərqlidir, 21 ildir ki, cəzalandırma permanent səciyyə daşıyır, hərçənd elə illər olur ki, standartdan artıq siyasi fəal həbs olunur.

Bir də həbs edilənlərin təqsirlilik göstəriciləri eyni deyil. Hətta 37-ci il repressiyasında da cəzalandırılanları hamısı günahsız olmayıb. Onların arasında ağır cəzalara layiq kifayət qədər cani olub.

İndinin özündə də siyasi motivlərlə tutulanların bir çoxu imam övliyası deyil, hətta aralarında ciddi cəzanı haqq edənlər də var. Məsələn, 20 il öncə Bakıda metroda partlayış törədərək onlarla insanın ölümünə bais olan "sadval"çıların adını siyasi məhbus siyahısına salmışdılar.

Ancaq elə siyasi məhbuslar da var ki, iqtidaryönlü jurnalistlər belə başqalarını yamanladıqları, "xalq düşməni" elan etdikləri halda onların adını çox hallandırmırlar, bilirlər ki, bu, qızıl-qırmızı həyasızlıq olar.

Bununla belə, hakimiyyətin inhisarında olan mediada bir sıra siyasi məhbuslara qarşı ritorika 78 il əvvəlkindən çox da fərqlənmir. İndiki qəzetçilər də "tam ifşa"dan, "ağır cəza"dan, "bütünlüklə məhv etmək"dən, "xarici agent"lərdən danışırlar. Ehtiyac olsa, əmək kollektivləri də işə qarışacaqlar, "zəhmətkeşlər" çıxış edərək, "xalq düşmənləri"nə ölüm tələb edəcəklər.

Repressiyanın hamısı pisdir - istər 100 il əvvəlki olsun, istərsə də 10 dəqiqə əvvəlki.

# Kremlin MDB kuratorunun Bakıya məxfi səfəri

## Dmitri Roqozin: "Azərbaycan rəhbərliyi ilə görüşdüm"

**Rusiya baş nazirinin müavini, Kremlin MDB respublikalarına dair siyasətinin kuratoru hesab edilən Dmitri Roqozin Bakıda elan edilməmiş səfərdə olub.**

Virtualaz.org saytı xəbər verir ki, Roqozin Bakıya dekabrın 28-də - bazar günü səfər edib. Və səfər barədə özü açıqlama verib.

Rəsmi dövlət xəbər agentliyi TASS tərəfindən yayılmış məlumata əsasən Roqozin dekabrın 29-da Amursk vilayətinin Leqorsk şəhərində "Vostoçnıy" kosmodromunun tikinti meydançasında təftiş aparıb və fəhlələrin yaşadığı Uqleqorsk yataqxanasına baş çəkib. O, kosmodromun tikintisində çalışan fəhlələrin Yeni il süfrəsinə hədiyyə də aparıb.

"Mən Bakıdan gəlirəm, orada dünən oldum. Azərbaycan Respublikasının rəhbərliyi ilə görüşdüm. Sizə Yeni il münasibətilə meyvə, tərəvəz gətirmişəm. Azərbaycandakı həmkar-dostlarım hədiyyə ediblər" - deyə baş nazirin müavini bildirib.

Roqozin meyvə-tərəvəzlə dolu səbəti fəhlələrə verib, üstəlik, onların hərəsinə Krımda istehsal olunan bir şüşə "Novıy svet" şampan şərabı paylayıb. Sonra Roqozin fəhlələrlə çay süfrəsi arxasında söhbət edib.

Qeyd edək ki, Roqozinin Bakıya səfərinə dair Azərbaycanın xəbər qaynaqlarında heç bir informasiya yer almayıb. President.az saytında da Roqozinin prezident İlham Əliyevlə görüşünə dair məlumat yoxdur. Bu baxımdan elan edilmişmi səfərin məqsədi qaranlıq qalır.

Qeyd edək ki, Qərbin "qara siyahısı"nda olan Dmitri Roqozin bu ilin iyun ayında da Bakıda səfərdə olub.

Dmitry Roqozin Krımın ilhaqından sonra ABŞ və Avropa Birliyinin "qara siyahı"sına salınan Rusiya siyasətçilərindən biridir. O, Qərb əleyhinə bəyanatları ilə tanınır. Onun Qərb banklarındakı hesabları dondurulub, səfərlərinə qadağa qoyulub.



Dmitri Roqozin



# Böyük əsrin böyük tərəddüdləri

Hüseynbala SƏLİMOV

**İnsan uşaqlıq təcrübəsini uzun müddət saxlayır. Bəzən bu, elə bir halda olur ki, hər şeyə baxışda infantilizmə gətirib çıxarır. Bu mənada siyasət də istisna deyil və bir də görürsən ki, böyük adamlar belə siyasi münasibətləri "kim daha güclüdür", "kim daha zəifdir" prizamsından çözməyə başlayırlar...**

Son vaxtlar baş verən olayları hərə bir cür çözəcək. Amma insanların baxışlarında "ABŞ-a qarşı belə getmək mümkündürmü?", "ABŞ niyə buna bu qədər sakit yanaşır?" suallarını oxumamaq mümkün deyil...

Amma dərindən fikirləşəndə bu sualların cavabı sadədir. Başlayaq elə birinci sualdan. ABŞ-a qarşı getmək mümkündür. Amma bunu o ölkələr, daha doğrusu, elə rejimlər edir ki, onların özlərinin bir siyasi vektor kimi ABŞ-la böyük problemləri olur və bir qayda olaraq belə siyasi elitaları ölkələrinin həqiqi milli mənafeləri çox az maraqlandırır. Ölkəsinin həqiqi milli maraqlarını düşünən siyasi elitalar ABŞ-la münasibətləri korlamaqda maraqlı olmurlar, o səbəbdən ki, ABŞ ideal siyasi partnyor olmasa da, fövqəldövlətlərin içində bəlkə də ən etibarlı və diqqətli tərəfdaşdır. Elə ölkələr var ki, onlar da güclü və qüdrətli hesab edilə bilərlər, amma bu dövlətlər başqaları ilə təmaslarda öz milli maraqlarından bir addım belə olsun kənara çıxmağa cəhd etmirlər. Bəlkə də bunu qısa şəkildə belə ifadə etmək olardı: ABŞ yeganə dövlətdir ki, bütün dünyanın təəssübünü çəkir...

Gələk ikinci suala. Bunu bir-iki cümlə ilə izah etmək çətindir. ABŞ niyə görə bəzən zəif görünür? Bunun da sadə cavabı var. Ötən əsrin 90-cı illərinə qədər bir ABŞ vardı, indi başqa ABŞ var.

Əgər birinci öz geosiyasi missiyasını birmənalı şəkildə müəyyən etmişdisə və bunun kommunizmə qarşı mübarizə olduğunu cızmışdısa, onu iki haqda demək olmurikinci ABŞ hələ də axtarış mərhələsindədir...

H.Kissincerin məşhur bir əsəri var. Adı "Diplomatiya"dır. Bu əsərdə vurğu ona edilir ki, ABŞ özünün xarici siyasətində həmişə dəqiq prinsiplərə və dəyərlərə istinad edib. Təbii ki, bu iddiaya bir qədər tənqidi yanaşmaq olar və beynəlxalq münasibətlər sistemini bir qədər təftiş etməyə cəhd etmək olar...

Amma hər şeydə bir qızıl orta olur- ABŞ insafən demək lazımdır ki, bu orta həddi gözləyir...

İndi dünya soyuq müharibə dövründəkindən çox qəlizdir. O vaxt hər şey daha sadə idi: kapitalizm və sosializm vardı...

İndi mənzərə belə deyil. Hər şey mürəkkəbləşib. Hər şey qəlizləşib. Elə rejimlər var ki, onlar kobud şəkildə olsa da, ABŞ-ın dəyər verdiyi iqtisadi prinsiplərə və modellərə əməl edirlər. Bu dövlətlərin daha çox siyasətlə bağlı problemləri olur...

Azərbycan da sonunculardandır. Əslində bu proseslərdə ABŞ zəif görünmür, əksinə, Azərbaycan bir qədər qeyri-ciddi davranır. Özünüz baxın. Bu proseslərdə iki ölkədə böyük amerikafobiya müşahidə edildi - bunlardan biri Rusiya, digəri isə Azərbaycandır...

Rusiyanı başa düşürük. ABŞ bu ölkənin "ayağını tapdayır". Bəs Azərbaycana nə gəlib? Ona nə gəlib ki, anti-Amerika siyasəti yürüdür? Burada da cavab olduqca sadədir və bəlkə də bir qədər qeyri-adidir. Bu proseslər göstərdi ki, bu ölkənin siyasi elitasında Rusiya ilə bağlı siyasi fiqurlar var...

Onlar Rusiyaya qarşı edilənləri az qala özlərinə qarşı qəbul etdilər. Halbuki ortalıqda bir problem yox idi. Hətta son vaxtlar ABŞ Azərbaycanı bir qədər unutmuşdu da, bu regionda o daha çox Ukraynanın və onunla bir cinah təşkil edən dövlətlərin - Gürcüstanın və Moldovanın problemləri ilə məşğul idi...

Bir tərəfdən Azərbaycanın özünü ABŞ-a xatırlatması normal haldır. Amma bunu belə edirlərmi? Doğrudanmı, Azərbaycan sözünü ABŞ-a münasibətləri kəskin şəkildə korlamaqla çatdırmalı idi?

Düşünürük, Rusiyadan asılı olmayan, Rusiya ilə siyasi bağlılığı olmayan bütün insanlar bizim narahatlığımızı bölüşər. Bu yolla heç bir ölkə özünü yada salmır, bu yolla heç bir ölkə özünə diqqət çəkməyə çalışmır...

ABŞ nə edəcək? Təbii ki, buna səbrlə yanaşacaq. Məsələ bundadır ki, bəzi geopolitiklər ABŞ -a "dünya jandarmı" rolunu sırımağa çalışsalar da, heç də hamı bunu bölüşmür. Bunun səbəbi bir az əvvəldə dediklərimizdir. Dünya indi növbəti rol bölgüsü ərəfəsindədir. Ən əsası isə odur ki, bu məhələni təkcə ABŞ yaşamır...

# "Ergenekon"un "qara qutusu" Azərbaycan sərhədində tutuldu

## Tuncay Güney Türkiyədə "fahişəliyə cəlb etmə" maddəsi ilə axtarışda imiş; onun indi həbsi ilginc yorumlara səbəb olub

**İnterpolun mərkəzi bürosunun Gürcüstan bölməsinin əməkdaşları Gürcüstan-Azərbaycan sərhədində İnterpol tərəfindən qırmızı xətlə axtarışda olan Türkiyə vətəndaşı adı Azərbaycanda da yaxşı xatırlanan Tuncay Güneyi həbs ediblər. Modern.az Gürcüstan mətbuatına istinadən xəbər verir ki. Türkiyədə "fahişəliyə cəlb etmə" maddəsi ilə axtarışda olan Tuncay dekabrın 25-dən beynəlxalq axtarışda olub. Günahı sübuta yetiriləcəyi halda vətənində onu 2 il 10 ay müddətində azadlıqdan məhrumetmə cəzası gözləyir.**

Gürcüstan Daxili İşlər Nazirliyinin məlumatına görə, Tuncay Güney Kvemo Kartli bölgəsindəki müvəqqəti saxlanma təcridxanasında saxlanılır.

Qeyd edək ki, qalmaqallı "Ergenekon" cinayəti Tuncay Güneyin ifadələri əsasında başlamışdı. İstanbul polisinin dələduzluq ittihamı ilə həbs etdiyi Güney həbsdə olarkən "Ergenekon" adlı gizli təşkilat haqda sensasion məlumatlara malik olduğunu iddia etmişdi. O, bu təşkilata mənsub olduğunu bildirib və könüllü şəkildə ifadə verməyə razılaşıb. Məhz həmin vaxt Güneyin verdiyi ifadələr əsasında Türkiyənin ordu sistemini sarsıdan, ünlü ordu generallarının uzun müddətli həbsi ilə nəticələnən "Ergenekon" əməliyyatı başlamışdı. Məhz bu şəxsin ifadələri əsasında Türkiyə polisi Vəli Küçik də daxil olmaqla, "Ergenekon" əməliyyatında həbs edilən bir çox şəxslərin Azərbaycanla telefon danışıqlarını, elektron poçt yazışmalarını izləyib.



Tuncay Güney

Olduqca qaranlıq imicə malik bu şəxs haqqında ziddiyyətli məlumatlar var və "Yeni Müsavat" da zaman-zaman onun haqqında yazıb. O, Milli İstihbarat Təşkilatının (MİT) agenti olması barədə iddiaları özü təkzib etməyib, hətta məlum olmuşdu ki, onun gizli ləqəbi "İpək"dir. Bu şəxs uzun müddət Kanadada yaşayıb, məlumatlara görə, yəhudiliyi qəbul edib və yəhudi sinaqoqunda hahamdır.

Türkiyədən mühacirət etdikdən sonra bir müddət ABŞ-da yaşayıb, daha sonra Kanadaya köçüb. Güneyin Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin və "Mossad"ın agenti olduğu haqda şübhələr mövcud idi. Türkiyə mətbuatı isə üzə çıxarmışdı ki, əvvəllər jurnalist olan bu şəxs dövlət qulluqçusu kimi pensiya da alıb. Digər məlumata görə, Güneyin Türkiyədə olarkən İran xüsusi xidmət orqanlarının "Cəllad" ləqəbli agenti ilə dost olub. Söhbət İranın Türkiyədəki baş konsulluğunun keçmiş konsul müavini Möhsün Karger Azad kimi tanınan şəxsdən gedir. Jurnalist olarkən Güney onunla dostluq edib, bəzi məlumatlara görə, MİT onun əliylə İrana dair bir çox məxfi məlumatları toplayıb. Lakin sonradan Möhsün Karger Azad Türkiyədə İran rejimi əleyhdarları olan bəzi şəxslərin öldürülməsini təşkil etdiyi üçün "persona non-qrata" elan edilib.

Nəhayət, belə bir iddia da vardı ki, Tuncay Güney nurçu təriqətinin lideri Fətullah Gülənə bağlıdır. F.Gülən haqda həbs qərarının verildiyi bir vaxtda onun Azərbaycan sərhədində tutulması maraq doğurur.

Olmaya, o indi də Fətullah Güləni "satacaq?"

❑ Xəbər xidməti

# Şimali Koreya diktatoru haqda filmə Azərbaycanda niyə baxmaq olmur?

## "Müsahibə"yə baxmaq istəyənlər "bu video ölkənizdə izlənə bilməz" sözləri ilə qarşılaşırlar

**Youtube video portalı Şimali Koreya lideri Kim Çen İndən bəhs edən "Müsahibə" filminin Azərbaycanda izlənilməsinə qadağa qoyub. Axar.az xəbər verir ki, film ötən həftə "Soni Pikçers" ("Sony Pictures") şirkəti tərəfindən Youtube video portalına yüklənib.**

Film internetə yükləndiyi gün 900 mindən çox istifadəçi tərəfindən izlənib və artıq bu günə olan məlumata görə, 4 gün ərzində 15 milyon dollar qazanc əldə edib.

Lakin video portala yüklənən filmi Azərbaycanda izləmək mümkün deyil. "Soni Pikçers" şirkətinin rəsmi Youtube hesabına yüklənən videonu Azərbaycanda izləmək istəyənlər "bu video ölkənizdə izlənə bilməz" sözləri ilə qarşılaşırlar.

Qeyd edək ki, Youtube video portalı müəllif hüquqlarından asılı olaraq bəzən videoları ölkə və bölgələrə görə məhdudlaşdıra bilir.

Xatırladaq ki, Koreya lideri Kim Çen İndən bəhs edən "Müsahibə" filmini şirkət 2014-cü il dekabrın 18-də Nyu Yorkda nümayiş etdirməyi planlaşdırırdı. Lakin premyera zamanı terror aktı olacağı haqda naməlum hakerlərdən gələn təhdid səbəbindən şirkət tədbiri ləğv etməyə məcbur oldu və filmi internetə yüklədi.



Kim Çen İn

# Mübariz Mənsimovun tankeri Rumıniyada saxlanıldı

**Türkiyədə mənzillənən azərbaycanlı oliqarx, "Palmali" şirkətlər qrupunun sahibi Mübariz Mənsimovun gəmilərindən biri həbs olunub.**

Virtualaz.org saytı Türkiyə qaynaqlarına istinadən xəbər verir ki, "Palmali Denizçilik" şirkətinin mülkiyyətində olan, 6 min ton ağırlığında kimyəvi maddə daşımaq üçün nəzərdə tutulmuş "M/T ARMADA EXPLORER" tankerinə Rumıniyanın Köstence limanında həbs qoyulub.

Gəmiyə dəniz daşımalarına dair Paris Memorandumu çərçivəsində aparılan yoxlamalar çərivəsində həbs qoyulduğu bildirilir. Əldə edilən məlumata görə, tanker dekabrın 27-də Köstence limanına yan alıb, Rusiya bayrağı altında üzən tankerdə Rumıniyanın dəniz müfəttişləri yoxlama aparıblar. Yoxlamaların nəticəsi olaraq gəmidə texniki və idarəetmə problemləri meydana çıxıb. Nəticədə Rumıniyanın dəniz müfəttişləri tankeri həbs qoyub.



Mübariz Mənsimov

"Armada Explorer" tankerinin keçmiş adı "Bakı" olub, tanker maye halda olan kimyəvi maddələr və neft daşımaq üçün nəzərdə tutulub. 4 min 534 ton yük daşıya bilir, su tutumu 6 min 526 tondur. Uzunluğu 138 metrdir. Rusiyanın Dənizçilik Reyestrində qeydiyyatdan keçib, 2006-cı ildə inşa edilib. Gəmi "Palmali Shipping Service" şirkəti tərəfindən istismar olunur.

Virtualaz.org qeyd edir ki, bu ilin əvvəllərində "Palmali" şirkətlər qrupuna məxsus "Bakı" tankeri Liviyanın yaraqlıların nəzarətində olan limanından qaçaq neft yükləmək cəhdi zamanı bu ölkənin sahil mühafizə qüvvələri tərəfindən atəşə tutulmuşdu. Malta bayrağı altında üzən tanker atəşdən yayınmağa imkan taparaq tam sürətlə Maltaya tərəf istiqamət almışdı.İndi Rumıniya limanında həbs olunan tankerin həmin "Bakı" tankeri ola biləcəyi istisna deyil.

# Banklarda niyə "əl dəyişir"?

**Mərkəzi Bankın qərarına görə, 2015-ci il yanvarın 1-dək nizamnamə və məcmu kapitalını 50 milyon manata çatdıra bilməyən banklar ya bağlanacaq, ya da digər banka birləşdiriləcək. Belə olan halda Azərbaycanda onlarla bankın əl dəyişdirəcəyi gözlənilir. Ekspertlər nizamnamə kapitalını 50 milyona çatdıra bilməyən bankların daha çox iri bankların tərkibinə qatılacağını bildirirlər. Bəs görəsən, bankların əl dəyişdirməsi bu sektorda hansı nəticələrə gətirib çıxaracaq? Bankların birləşdirilməsi üçün hansı prosedur qaydaları mövcuddur?**

**"Yeni Müsavat"ın sualını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, Mərkəzi Bankın cəmiyyəti vaxtı-vaxtında məlumatlandırmaması bir çox suallar yaradır:** "Hansı bankların bağlanacağı və ya birləşdiriləcəyi ilə bağlı məlumatlar olmadığından insanlarda təlaş yaranır. Əslində Mərkəzi Bank əmanətlərin taleyi ilə bağlı insanları məlumatlandırmalı idi. Təəssüf ki, yalnız rəqəmlər səsləndirilir ki, bir neçə bankın problemləri var, onlar ya bağlanacaq, ya da iri banklar tərəfindən udulacaq. Artıq çox az bir zaman qalıb. Bu günə qədər nizamnamə kapitalını artıra bilməyənlər də bunu iki günə edə bilməyəcəklər və həmin bankların lisenziyaları yanvardan sonra dayandırılacaq. Beynəlxalq təcrübədə də bankların birləşdirilməsi təcrübəsi var. Çox güman ki, kiçik banklarla iri banklar arasında razılaşma olacaq, danışıqlar aparılacaq. Böyük banklar tərəfindən kiçik banklar udulacaq və böyük bankların adı altında fəaliyyət göstərəcəklər. Bu prosesin həm hüquqi, həm də maliyyə prosedurları mövcuddur. Çünki banklar birləşməmişdən öncə həmin bankların audit hesabalamaları yayımlanmalıdır, bilinməlidir ki, həmin bankların depozitləri nə qədərdir. Bu, ciddi audit yoxlaması tələb edən bir prosesdir. Ancaq bundan sonra iri banklar tələb edə bilər ki, hansı bankı özünə birləşdirə bilər".

**İqtisadçı ekspert problemli kreditlər məsələsinə də diqqəti çəkdi:** "Rəsmi məlumatlara görə, ölkədə 1 milyard manata yaxın problemli kredit var. Bu məbləğin hansı kiçik banklara aid olduğunu, hər bankın nə qədər problemli kreditinin olması bankların birləşməsində çox ciddi rol oynayacaq. Çünki kiçik banklarda nə qədər problem varsa, iri banklar bu problemləri özlərinə götürəcəkmi, götürməyəcəkmi, hansı şərtlər altında banklar birləşəcək - bütün bu məsələlər hələ açıq olaraq qalır. Mərkəzi bank tərəfindən bir açıqlama yoxdur ki, prosedur qaydaları necə olacaq".



Natiq Cəfərli: "Bu prosesin hansı qaydada həyata keçiriləcəyi məlum deyil"



Vahid Əhmədov: "Əhalinin kredit faizlərindən narazı olduğunu nəzərə alsaq, bu birləşmələr bankların kredit siyasətinə də təsir göstərəcək"

**Bankların birləşməsinə beynəlxalq təcrübədə də təsadüf olunduğunu bildirən Natiq Cəfərli dedi ki, dünyada bu proses çox sivil qaydalarla həyata deyir:** "Beynəlxalq təcrübədə şəffaf audit yoxlaması keçirilir, cəmiyyətə açıqlanır, sonradan həmin bankın gəlirləri, çıxarları, borcları, depozitləri hesablanaraq ya auksion qaydasında satışa çıxarılır, ya da hər hansı iri bank onu özünə birləşdirmək istəyir. Azərbaycanda bu qaydalara əməl olunmur. Bundan başqa, depozitlərdə də problem ola bilər. Bildiyiniz kimi, cəmi 30 minə qədər olan depozitlərə dövlət sığortası var. Məlum deyil ki, o problemli banklarda 30 min manatdan yuxarı nə qədər depozit var və onların taleyi necə olacaq, sığorta həddinin keçən depozitlər necə ödəniləcək. Bütün bu suallar təəssüf ki, açıq qalır. Bu barədə ekspertlər yox, Mərkəzi Bank, səlahiyyətli qurumlar və həmin bankların rəhbərliyi cəmiyyətə daha doğru-düzgün məlumat verməlidirlər".

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, nizamnamə kapitalının artırılması bank sistemində ən əhəmiyyətli məsələlərdən biridir:** "Bankın kapitalı nə qədər çox olarsa, o zaman dövriyyədəki vəsait də çox olar və bankın kredit faizləri də aşağı olar. Azərbaycanda da banklardan bəziləri nizamnamə kapitalını tələb olunan həddə çatdıra bilməyiblər. Ola bilər ki, bəziləri bağlansın. Amma daha çox birləşməyə üstünlük verəcəklər. Nizamnamə kapitalının çox olması vacib məsələdir. Əhalinin kredit faizlərindən narazı olduğunu nəzərə alsaq, bu, bankların kredit siyasətinə də təsir göstərəcək".

❑ Nərgiz LİFTİYEVA



# Əfqanıstanda ikinci "İraq sindromu" yaşana bilər

## NATO 13 ildən sonra ölkəni "Taliban"a verib çıxır; 2001-ci ildə bu təşkilatı yox etmək üçün Əfqanıstana ordu yeridən ABŞ məqsədinə nail ola bilmədi...

**Beynəlxalq koalisiya qüvvələri dekabrın 28-də Əfqanıstanı rəsmən tərk edib. Bazar günü Kabildə keçirilən mərasimdə elan olunub ki, NATO-nun başçılıq etdiyi koalisiya Əfqanıstandakı qüvvələrini ölkədən tam olaraq çıxarır. Bununla da NATO-nun 13 illik Əfqanıstan kampaniyası rəsmən başa çatmış olub. Qərara əsasən, bundan sonra ölkədə yalnız 13 min nəfərlik hərbi təlimatçılar qalacaq.**

Qeyd edək ki, bir zamanlar Əfqanıstanda 51 ölkədən 140 min əsgər olub. Bundan sonra isə 350 minlik Əfqanıstan ordusu ölkənin təhlükəsizliyinə əsas cavabdeh olacaq. Yeri gəlmişkən, təkcə bu il "Taliban"la döyüşlərdə Əfqanıstan 4600 əsgər və polis itirib.

Beləliklə, NATO və Qərb dövlətlərinin 13 illik Əfqanıstan kampaniyası rəsmən başa çatıb. Ancaq "başa çatmaq" ifadəsi burda yerində sayıla bilməz, çünki əslində 13 il əvvəl Əfqanıstana hücum edən Qərb ölkələri əsas hədəflərinə çata bilməyib. "Taliban" hələ də Əfqanıstanda ən böyük qüvvə olaraq qalır. Ölkə ərazisinin böyük bir qisminə bu təşkilat nəzarət edir. İndi isə gözlənilir ki, NATO Əfqanıstanı tərk etdikdən sonra vəziyyət daha da pisləşəcək. Çünki İraq təcrübəsi göstərdi ki, ABŞ qüvvələri bu ölkədən çıxdıqdan sonra təhlükəsizlik sahəsində vəziyyət daha da pisləşir.

1996-cı ildən "Taliban"ın hakimiyyəti altında olan Əfqanıstan 2001-ci ildə 11 sentyabr hadisələrindən sonra ABŞ və NATO-nun qurduğu beynəlxalq koalisiya tərəfindən işğal olunub. "Taliban"ın Üsamə bin Ladeni təhvil verməkdən imtina etməsinə cavab olaraq oktyabrda beynəlxalq koalisiya Kabil başda olmaqla, Əfqanıstanda "Taliban" mövqelərinə aviasiya zərbələri endirməyə başladı. Ardınca isə "Taliban"ın qoyub qaçdığı Kabilə daxil olaraq yeni müvəqqəti hökumət qurdular. Ancaq ötən 13 ildə Əfqanıstanı sabit ölkəyə çevirmək mümkün olmadı.

Qeyd edək ki, son illərdə ABŞ hökuməti Əfqanıstandakı əsgərlərini çıxarıb. 2009-cu ildə Obama İraqdan çıxanlan əsgərlər hesabına Əfqanıstanda ordunun sayını artırmaqla burda sabitliyi sürətlə bərpa etmək xəttini götürsə də, bir neçə ildən sonra aydın oldu ki, bu plan faydasızdır.

İndi isə koalisiya qüvvələrinin Əfqanıstanı bütövlükdə tərk eləməsi ölkədə böyük bir təhlükəsizlik boşluğu yaradacaq. Çünki bu günə qədər onsuz da "Taliban"la mübarizə aparmaq xeyli çətin idi. İndi isə NATO-nun çəkilməsi ilə bu vəziyyət daha da pisləşəcək.

Bəzi müşahidəçilərə görə, Amerikanın Əfqanıstandan çıxması 1989-cu ildə SSRİ-nin Əfqanıstanı tərk etməsi ilə oxşar vəziyyətdir. Çünki Əfqanıstanda Amerika çətiri altında yaradılan hökumət bütün ölkə üzrə suverenliyə sahib deyil, üstəlik, korrupsiya geniş yayılıb və normal fəaliyyət göstərə bilmir. "Taliban" isə getdikcə daha da fəallaşır. Koalisiya qüvvələrinin çıxması "Taliban"ın hakimiyyətə qayıtması üçün münbit şərait yaradacaq.

Məsələ burasındadır ki, hər nə qədər əleyhdarları olsa da, "Taliban" hələ də Əfqanıstanda əsas güc olmaqda davam edir. Üstəlik, nəzərə almaq lazımdır ki, son illərdə dünyada baş verən proseslərin fonunda radikal dini cərəyanların fəallaşması "Taliban"ı daha da gücləndirir. Çünki bu ölkə radikal İslamın formalaşması üçün əsas baza rolunu oynayıb və radikalizm ənənələri hələ də güclüdür. Ötən əsrin 80-ci illərində SSRİ Əfqanıstana hərbi müdaxilə edərkən Pakistanda dini mədrəsələr Əfqanıstanda sovetlərə qarşı cihada yollanacaq "mücahidlər" yetişdirən əsas mərkəz idi. Pakistanda körfəz ərəb ölkələrindən göndərilən pullar hesabına formalaşdırılan 18 min mədrəsədə o zaman dünyanın bir çox ölkələrindən gəlmiş 1 milyona yaxın müsəlman gənc mücahid yetişdirilirdi. Daha sonra bu mədrəsələrdə yetişən kadrlar "Taliban"ı (tərcümədə tələbə mənasını verir-K.) yaratdılar.

1996-cı ildə hakimiyyət "Taliban"ın nəzarəti altına keçdikdən sonra Əfqanıstan həm də radikal qrupların əsas yuvasına çevrildi. Bəzi mənbələr hazırda ölkə ərazisinin 75 faizinə məhz "Taliban"ın nəzarət etdiyini qeyd edir. NATO və mərkəzi hökumət yalnız iri şəhərlərdə hakimiyyətə malikdir. Bu baxımdan Amerikanın Əfqanıstanı 13 ildən sonra (2014-cü ildə) yenidən Talibana verib çıxması faktiki olaraq Əfqanıstanı radikal qruplara tapşırmaq mənasına gəlir.

❑ KƏNAN

## Deputatdan banklara sərt ittiham

### Bu gün deputatlar tətilə gedir



Cavid Qurbanov

**Dekabr ayının 30-da Milli Məclisin payız sessiyası başa çatır. Həmin gün payız sessiyasının 2014-cü ildəki son iclası keçiriləcək və deputatlar tətilə gedəcəklər. Bu barədə Milli Məclisdən məlumat verilib. Məlumata görə, sonuncu iclasın gündəliyinə 15-ə yaxın məsələ salınıb. Məsələlərin böyük əksəriyyəti dövlətlərarası sazişlərdir. Eyni zamanda hərbi xidmət haqqında qanunvericiliyə dəyişiklik də həmin iclasda müzakirəyə çıxarılacaq.**

Parlamentin iqtisadi siyasət komitəsinin iclasında Vergilər Məcəlləsinə edilən dəyişikliklər zamanı çıxış edən "Azəryolservis" ASC-nin rəhbəri, deputat Cavid Qurbanov isə bankları sərt çıxış edib. Moderator.az-ın məlumatına görə,deputat bildirib ki, bu gün ölkədə fəaliyyət göstərən banklar sadəcə soyğunçuluqla məşğuldur: "Banklar əhalinin başına olmazın oyununu açırlar. Məcəlləyə dəyişikliyə gəldikdə deyə bilərəm ki, bu, prezident tərəfindən təqdim olunub və ölkə başçısı hər zaman xalqın, xüsusən də sadə vətəndaşların qeydinə qalıb və bu siyasəti yürüdüb. Sadəcə, onun tapşırıqları bəzən məmurlar tərəfindən düzgün olmayan tərəfə yönəldilir".

❑ ELŞAD

YENİ MÜSAVAT
N 318 (6027) 30 dekabr 2014



# Məhbus haqqı - bizdə və onlarda

Zahid SƏFƏROĞLU
zahid.safaroglu@box.az

**Azərbaycanda yaşamaq ildən-ildə çətinləşir. Fərq eləməz, istər çöldə - azadlıqda olsun, istərsə də içəridə - ölkənin rəsmi zindanında. Elə o səbəbə məmləkətin adı nüfuzlu insan haqları təşkilatlarının "qara siyahı"larından düşmür. İndi hətta optimistlər etiraflar etməyə başlayıblar ki, bəs, sən demə, 10-12 il öncə Azərbaycanda əməlli-başlı demokratiya varmış. Keçək mətləbə.**

Ötən həftə 14 saylı həbsxanada gənc dustaq Elşad Babayev işgəncə ilə öldürüldü. Mərhumun nədən bu aqibətə tuş gəldiyi hələlik qaranlıq qalır. Bir şey dəqiqdir ki, adıçəkilən türmə ölkədə olduqca pis ad çıxarıb, orda yatıb çıxanlar onu sadəcə, "konslager" adlandırırlar.

Əsas sirr isə yəqin ki, öldürülənin özü ilə birgə basdırıldı. Hərgah, çörəyi ağzına yeyənlərdən ötrü hər şey onsuz da aydındır. Ancaq səbəb nə olur-olsun, bu, heç kimə linc məhkəməsi qurub Elşad Babayevi, digər dustaqları həyatdan məhrum etməyə, onu əzabla öldürməyə haqq vermir, verə bilməz. Belə qəddarlıq Allah qarşısında da böyük günahdır və cəzası hələ bu dünyada veriləcək...

Azərbaycanda hələ də XIX əsrdir deyəsən. Ona görə bu qənaətdəyik ki, Elşadın ölümünə bais olanlar da digərləri kimi yüzdə 99 faiz ehtimalla cəzalanmayacaqlar. Hər halda, indiyədək belə fakta rast gəlməmişik. Rast gəlmədiyimiz üçün də bu cür vəhşi, vandalist hərəkətlər səngimək bilmir.

Halbuki qatillərin cəzasız qalmamasında öncə dövlət maraqlı olmalıdır. Əvvəla, ona görə ki, vətəndaşın ona inamı sarsılmasın. İkinci o səbəbə ki, vətəndaşa cəza məhz dövlətin adından kəsilir. Öldürmək lazım gəlsəydi, elə dövlət özü həyatdan məhrum edərdi məhkumu. Bunu etməyibsə, ömürlük məhbuslar xaric, istənilən dustağın cəzasını çəkdikdən sonra sağ-salamat öz doğmalarına qovuşmağa haqqı var və dövlət bu haqqı təmin etməyə borcludur. Ədalətli türmə cəzası islah etmək məqsədi güdür - bu da unudula bilməz.

Müxtəsəri, məhbusun həyatına ilk növbədə dövlət və onun müvafiq qurumları cavabdehlik daşıyır. Elədisə, bir məhkumun işgəncə ilə qətlə yetirilməsinə birinci növbədə türmə rəisi cavab verməli deyilmi? Veriləcəkmi? Çətin. Çünki bizdə indi bəlkə də ən ucuz şey - insan həyatıdır. Qəribədir, azadlıqdan, cəmiyyətdən və doğmalardan təcrid etmə ağlı yerində olan insan üçün onsuz da cəzadır, mənəvi işgəncədir. Üstəlik, içəridə ona fiziki işgəncə vermək, həm də əsas olmadan vermək - heç bir kitab-dəftərə sığmır...

Bu yerdə yada Norveçdə 77 gəlmə vətəndaşı soyuqqanlı şəkildə qətlə yetirmiş və cəmi 21 il həbs cəzası almış protestant-terrorçu və millətçi Anders Breyvik düşür. Həbsxanada ona hansı şərait yaradılmayıb? Terrorçu kompüterə qədər təmin olunub, qidalanması da ki, bizim standartlarla müqayisəyə belə gəlməz, bir növ ev yeməkləri. Kəsəsi, "VİP türmə"-fason bir yer.

Sözü ona gətiririk ki, Qərb öz terrorçusunun belə qeydinə qalmağı bacarır - təbii ki, qanunlar çərçivəsində. Çünki orada hətta terrorçu da insan sayılır, hansı ölçüdə cinayət eləməsindən asılı olmayaraq; türmədə olsa belə, onun yerdə qalan haqları toxunulmazdır. Bizdə isə narkotik aludəçiliyinə görə ilyarım cəza almış 31 yaşlı gənc dustaqxanada işgəncə nəticəsində həyatını itirir. O dustaqxana ki, hüquq müdafiəçisi Vidadi İsgəndərlinin təbirincə desək, onun yeməklərini heç məmurların itləri də yeməz. Ordakı başqa ağır şərtlər də öz yerində.

Bax, Azərbaycanla Norveçin, digər Qərb ölkələrinin əsas fərqi bundadır - insana, insan ləyaqətinə, insan haqlarına, o sırada məhbus haqlarına fərqli yanaşmada, cinayətkarın cəzasız, günahsızın zindana salınmasında. Bu fərqliliyin növbəti, əfsus ki, həm də sonuncu olmayacaq qurbanı Elşad Babayevdir. Onun qatilləri də "tapılmayacaq". Uzaqbaşı "nadzor"ların adı beynəlxalq təşkilatların qara siyahısına düşəcək, Azərbaycanın imici isə onların sayəsində daha bir zərbə alacaq. Ancaq bu, iqtidardakılar üçün çox xırda şeylərdir. Norveçdən başqa bir fərqimiz bundadır. İndi adımız "qara siyahı"lardan necə çıxarılsın ki?..

***

Belə baxanda azadlıqdakı vətəndaşlarının elementar hüquqları qorunmayan məmləkətdə dustaq hüquqlarından danışmaq absurd olardı. Absurda görə vaxtınızı aldığımız üçün üzr istəyirik...

---

# İlin ən yadda qalan şou-biznes qalmaqalları

## 2014-də Hüseyn Dərya dünyasını dəyişdi, Qədir Qızılsəs öz həmkarı ilə canlı efirdə dalaşdı, Elza Seyidcahan deputatlıq eşqinə düşdü...

**Artıq yeni ilin astanasındayıq. Geridə qoyduğumuz 2014-cü il mədəniyyət və şou aləmi üçün maraqlı və kədərli hadisələrlə yadda qaldı.**








İlin əvvəlində məşhur reper Hüseyn Dəryanın faciəli ölümü hər kəsi sarsıtdı. Avtomobil qəzasına düşən reper xəstəxanaya yerləşdirilsə də həyatını xlas etmək mümkün olmadı. Həkimlərin sözlərinə görə, 2 həftə dalbadal Hüseyn Dərya xəstəxanaya gətirilib. Hər dəfə də o, qəbul etdiyi narkotik maddələrin təsirindən ölümcül hala düşübmüş. Sonuncu dəfə isə həkimlər məşhur repçinin həyatını xilas edə bilmədilər.



2014-cü ildə mədəniyyət aləmində daha bir ağır itki yaşandı. Azərbaycanın əməkdar artisti, Dövlət Musiqili Teatrının aktrisası Xanım Qafarova dünyasını dəyişdi. 1967-ci il təvəllüdlü X.Qafarova süd vəzisi xərçəngindən əziyyət çəkirdi. Qeyd edək ki, ölümündən əvvəl X. Qafarovanın İsraildəki müalicəsini Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva öz üzərinə götürmüşdü. Lakin əcəl buna imkan vermədi.

Bu il bir sıra tanınmış şəxslərin həbs edilməsi ilə xatirələrdə qaldı. Həbs olunanlar arasında tanınmış teleaparıcı İlham Mirzəyev də var idi. Həbs barədə açıqlamada bildirilirdi ki, İlham Mirzəyevin saxlanması na səbəb vətəndaşların onun tərəfindən aldadılması ilə bağlı çoxsaylı müraciətləri olub. İlham Mirzəyevə Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə (dələduzluq) ittiham olunaraq hökm oxunub. Hökmə əsasən İ.Mirzəyev 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Qeyd edək ki, "Space" telekanalında "Etiraf" verilişinin aparıcısı olan İlham Mirzəyev eyni zamanda baxıcılıqla məşğul olurdu. Bundan başqa, teleaparıcıya məxsus "IlhaMed" adlı klinikanın qanunsuz fəaliyyəti ilə bağlı xəbərlər yayıldı. Məlumatlarda o da bildirilirdi ki, klinikaya İlham Mirzəyevin həyat yoldaşı Ramilə Mirzəyeva rəhbərlik edirmiş.

**"Əjdaha" ləqəbli müğənni Nadir Qafarzadənin "Ford Boyard" verlişində "məşhur" qışqırığının əks-sədası hətta erməni mətbuatından da gəldi. Ermənilər müğənninin "çıxışı"ndan istifadə edərək azərbaycanlıların simasını "göstərməyə" çalışdılar. "Əjdaha" müğənni ilin sonuna yaxın daha bir qalmaqallı açıqlama verdi:** "Vəsiyyət etmişəm ki, öləndə molla olmasın. Məndən inciməsinlər, amma son zamanlar görürəm ki, mollalar məclislərdə şou yaradırlar. Şou əhli kənarda qalıb, bunlar şou çıxarırlar. Duzsuz, dəxlisiz atmosferi görəndə istəmərəm ki, mən öləndə o cür hörmətsizlik olsun" - deyə müğənni mollaları qıcıqlandıran sözlər deyib.

Bu il müğənnilər Qədir Qızılsəslə Cavad Rəcəbov arasında da ciddi qalmaqal yaşandı. Televerilişlərin birində adlarını çəkdiyimiz müğənnilər studiyada canlı efir zamanı bir-birilərini ağır ifadələrlə təhqir etdilər. Bu qalmaqala səbəb Rəcəbin Qədir Qızılsəsə salam verməməsi olmuşdu.

Bu ilin şou xəbərlərindən bəlkə də ən uğurlusu rəqqasə Oksana Rəsulovanın ölkəmizi layiqincə təmsil edərək Hindistanın məşhur "İndias Best Cine Star Ki Khoj" yarışmasında qalib gəlməsi oldu. Qeyd edək ki, Oksana Rəsulova Hindistanda ZEE TV-də yayımlanan "Maharakshak Aryan" serialında rol alıb. Serial yarışma layihəsi gedərkən lentə alınıb. Bu arada bir məlumatı da qeyd etmək istərdik: rəqqasə "Yeni Müsavat"ın əməkdaşları ilə razılaşdırılmış müsahibəyə gələrkən avtomobil "qəzası"na uğramışdı. Söz verib müsahibəyə gələrkən "yol"da "qəza"ya uğrayan təkcə Oksana xanım deyil...

Bu yaxınlarda teleaparıcı Mətanət Əliverdiyevanın canlı yayımda "şpaqat" açması da xeyli müzakirə olundu. ATV kanalının "Gündəlik" verilişində aparıcı rəqs sonrası özünün "şpaqat" bacarığını nümayiş etdirməklə mətbuatın gündəmini günlərlə məşğul etdi. Aparıcının bu hərəkəti zalda olan tamaşaçılar tərəfindən alqışlansa da, mətbuatda və sosial şəbəkələrdə tənqidlə qarşılandı. Əməkdar jurnalist, teletənqidçi Qulu Məhərrəmli aparıcının hərəkətini "fokus" adlandırıb narazılığını bildirdi. Aparıcının bu hərəkətinin ardınca ANS TV-də yayımlanan "Günə Baxan" verilişində aktrisa-aparıcı Telli Hüseynova "şpaqat" açdı. Ola bilsin ki, üzümüzə gələn yeni ildə "şpaqat" açanların siyahısı bir az da böyüsün.

İlin sonlarına yaxın daha bir qalmaqal müğənni Elza Seyidcahanla bağlı oldu. Onun deputat olmaq istəyi xeyli səs-küy yaradan açıqlama və reaksiyalarla yadda qaldı. Müğənni müsahibələrinin birində demişdi ki, bəzi icra başçıları ona "səndən yaxşı deputat olar" deyiblər. Bu açıqlamadan sonra musavat.com bir sıra icra hakimiyyəti rəsmiləri arasında sorğu keçirmişdi. İcra hakimiyyətlərindən E.Seyidcahanın deputatlığa bağlı dediklərinə sərt cavablar verilmişdi.

**Yeni ildə "nələr" olacaq, inşallah, yaşayıb görəcəyik.**

❑ **XALİDƏ**

YENİ MÜSAVAT
N 318 (6027) 30 dekabr 2014



# Məhkumun ölümü 14-cü "zon"da yeni amansızlıqlara meydan açıb

## Məhkum anası: "Oğlumu döyüblərsə də mənə göstərsinlər"

**"Mən övladımı görmək istəyirəm. Oğlumu döyüblərsə də mənə göstərsinlər. Görüş istəyirəm, deyirlər heç cür olmaz. Kimə şikayət edək, dərdimizi kimə deyək bilmirik" - bu sözləri "Yeni Müsavat"a məhkum Anar Qasımlının anası Kimyaxanım Qasımlı deyib. Bildirib ki, oğlu hicab aksiyası zamanı həbs olunduqdan sonra 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilərək 14 saylı cəzaçəkmə müəssisəsinə göndərilib: "Ora getdik, dedilər ki, Anarı Binə qəsəbəsindəki Vərəmli Məhbuslar üçün İxtisaslaşmış Müalicə Müəssisəsinə göndəriblər.**

Gəlmişik bura. Anarı niyə bura göndəriblər bilmirik. O, sağlamdır. Onunla sonuncu dəfə dekabrın 6-da görüşmüşük. Əhvalı yaxşı idi. Gəlmişəm bura, rəis Nizami Cavanşir oğlu Quliyev deyir ki, görüş verə bilmərəm. Səbəbini soruşuram, cavab verdi ki, oğlun karsdadır. Deyirəm, məgər 14 saylı zonda kars yoxdur? Niyə onu buranın karsına gətiriblər? Cavab vermir. Mənim oğlum sağ-sağlam həbs olunub. Onun heç bir xəstəliyi yoxdur".

14 saylı cəzaçəkmə müəssisəsində dekabrın 22-də məhkumlar qiyama qalxıblar. Onları bu addıma sövq edən məhkum Elşad Babayevin işgəncələrlə öldürülməsi olub. Aksiyadan sonra müəssisədə vəziyyət mürəkkəb olaraq qalır. Musavat.com-a çatan son məlumata görə, həbsxana rəhbərliyi məhbus ölümündə işçilərin əvəzinə məhkumları cəzalandırır. Gələn xəbərlərə görə, hicab məhbusları - cenubnews.com internet qəzeti xəbərinin müəssisədə cəza çəkən təsisçi-baş redaktoru Araz Quliyev, Anar Qasımlı və bir neçə məhbus digər müəssisəyə köçürülüblər. Belə məlumat var ki, həmin müəssisəyə məhkumlar xüsusi olaraq aparılır və döyülürlər.

Digər məlumatda deyilir ki, karsa salınan məhbuslar arasında dindar Rza Ağalı da var. Masallı rayonunda olan R.Ağalı 7 il müddətinə azadlıqdan məhrum edilib. Hazırda müəssisəsdə araşdırmalar davam edir. Bundan sonra da etiraz aksiyasında iştirak edən digər məhkumların "kars"a salınacağı gözlənilir. Əsasən müəssisənin "işverən" məhkumları öldürülən məhkum Elşad Babayevin ətrafında olmuş məhbusların üzünə durur və bundan sonra həmin məhkumlar cəza kamerasına salınır. Yayılan məlumatlarda məhkum Elşad Babayevi işgəncə ilə öldürməkdə müəssisənin 5 nəzarətçisinin adı çəkilir - Firdovsi, Faiq, Rahid, İsmayıl və Vüqar. Bu şəxslər qiyamdan sonra müəssisəyə getmirlər.

**Rza Ağalının qardaşı Bəxtiyar Ağayev islamazeri.az-a deyib ki, qardaşını da E.Babayev kimi öldürə bilərdilər. B.Ağayev bildirib ki, qardaşı artıq 2 il 4 aydır ki, həbs olunduğu müddət ərzində demək olar ki, kars həyatı yaşayıb:** "Rzanın həyatı "kars"larda çürüyür. Onu həbs olunduğu müddət ərzində hər zaman karsa salıblar. O, hər dəfə həbsxanada azan vaxtı azan verdiyi üçün cəza kamerasına salınıb. Hətta qardaşıma o qədər işgəncə veriblər ki, ciyərlərinə su gəlib. Bu an onun sağlamlığı təhlükədədir. Amma bütün bunlara baxmayaraq, Rza şikayət etməyimizi istəmir. Onu da deyim ki, heç kim Rzaya və onun timsalında digər mömin məhbuslara təzyiq göstərə bilməz. Onlar birbaşa Allaha bağlı olan insanlardır".

14 saylı CM-də məhbus həyatı yaşayan jurnalist Araz Quliyevin qardaşı da nigaran olduğunu bidlirib. Azər Quliyev deyib ki, həbsxananın hansısa bir nadzoru məhkumu döyüb öldürürsə, o, cəza çəkməlidir.

Xatırladaq ki, dekabrın 22-də 31 yaşlı məhkum Elşad Babayev həbsxananın 5 nadzoru - Firdovsi, Faiq, Rahib, İsmayıl və Vüqar tərəfindən işgəncə ilə öldürülüb. Bundan sonra həbsxanadakı məhkumlar baş verən haqsızlığa qarşı etiraz ediblər. E.Babayevin bacısı S.Babayeva qardaşının ölümündə suçu olan hər kəsin cəzalandırılmasını tələb edir.

E.Babayevin dünyasını dəyişməsi faktına görə Qaradağ Rayon Prokurorluğunda cinayət işinin başlanıldığı bildirilir. Bu günə qədər prokurorluq orqanları olayla bağlı rəsmi məlumat verməkdən çəkinirlər. Bu isə baş vermiş cinayətin ört-basdır edilməsi haqda müzakirələrə yol açıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Yoxa çıxan ikinci Malayziya təyyarəsinin axtarışları nəticə vermir

## 2014-cü ildə təyyarə qəzalarında ölənlərin sayı 762 nəfər olub

**Malayziyanın "AirAsia" aviaşirkətinə məxsus olan və dekabrın 28-də radarlardan itən "Airbus 320" təyyarəsinin axtarışları bərpa edilib. Virtualaz.org saytı xarici KİV-lərə istinadən xəbər verir ki, QZ8501 reysi ilə uçan təyyarə İndoneziyadan Sinqapura uçarkən yolun yarısında radarlardan itib, təyyarənin göyərtəsində 162 nəfər sərnişin və heyət üzvü olub. Təyyarənin ya ildırım vurması üzündən, ya başqa səbəblərdən İndoneziyanın Belitunq adası rayonunda okeana düşdüyü ehtimal edilir.**

Lakin təyyarənin yeri haqda hər hansı ipucu yoxdur. Gecə saatlarında dayandırılan axtarış-xilasetmə əməliyyatları bu gün səhər hava şəraitinin nisbətən yaxşılaşmasından sonra yenidən başlayıb.

İndoneziyanın milli axtarış və xilasetmə xidmətinin rəhbəri Bambanq Soelisto keçirdiyi mətbuat konfransında bildirib ki, ola bilsin təyyarə dənizin dibindədir. Bununla belə, o, hələlik heç bir dəqiq məlumatın olmadığını deyib.

Son məlumatlara görə, təyyarənin düşdüyü ehtimal edilən zonada - Yavan dənizi rayonunda suyun üzərində şübhəli obyektlər müşahidə olunur. İndoneziyanın aviasiya vitse-marşalı Aqusa Dvi Putranto deyib ki, hazırda hərbçilər bu məlumatları araşdırır.

"Hələlik biz əmin deyilik ki, bunlar "AirAsia" təyyarəsinin qalıqlarıdır. Həmin rayona axtarış qrupu göndərmişik, ancaq sıx buludlu hava əməliyyata mane olur" - o bildirib.

Həmçinin bildirilir ki, yerli sakinlər təyyarənin qəzaya uğradığı ehtimal edilən rayonda partlayış səsi eşidiblər.

Bu arada məlum olub ki, bu ilin martında yoxa çıxan, iyul ayında Donetsk üzərində vurulan və indi yoxa çıxan Malayziya təyyarələrinin hər üç eyni sığorta şirkətində sığortalanıb.

Almaniyanın "Allianz Global Corporate & Specialty UK" (AGCS) şirkətindən bildiriblər ki, onlar "AirAsia" şirkətinin təyyarələrini sığortalayan aparıcı şirkətdir və təyyarənin itməsinə görə şirkətə 50 milyon dollar sığorta kompensasiyası ödəməyə hazırdır.



Şirkət bundan əvvəl yoxa çıxan və vurulan Malayziya sərnişin təyyarələrini də sığorta etdiyini təsdiqləyib.

Qeyd edək ki, bu, il ərzində yoxa çıxan ikinci Malayziya təyyarəsidir. Bu ilin martında Malayziyanın "Malaysia Airlines" hava yolları şirkətinin "Boeing-767" təyyarəsi Hind okeanı üzərində yoxa çıxıb və bu günədək təyyarədən heç bir xəbər yoxdur. Aylarla davam edən axtarış-xilasetmə əməliyyatları heç bir nəticə verməyib.

İyun ayında isə həmin şirkətin təyyarəsi Ukraynanın Donetsk vilayəti üzərində vurulub. İndi daha bir Malayziya təyyarəsinin yoxa çıxması bu ölkənin hava yolları ətrafında qorxunc mistika hökm sürdüyünə dair konspiroloji nəzəriyyələri gücləndirib.

Xəbərlərə görə, axtarış əməliyyatlarına Sinqapur və Avstraliya da kömək edir. Gözlənilir ki, Cənubi Koreya da axtarış əməliyyatlarına qoşulacaq. İndoneziyanın vitse-prezidenti Yusuf Kala bildirib ki, təyyarənin qəzaya uğradığı ən güclü ehtimaldır. Onun sözlərinə görə, axtarış əməliyyatları Cənubi Çin dənizini Yavan dənizi ilə birləşdirən Karimat akvatoriyasında aparılır.

Təyyarə sonuncu dəfə Belitunq adası rayonu üzərindən uçarkən rabitə əlaqəsinə çıxıb. Komandir dispetçerdən marşrut haqda məlumatları təqdim etməyi istəyib. Dispetçer müvafiq informasiyaları verib və daha sonra təyyarə radarlardan itib. Bu il Malayziya Hava Yollarına məxsus iki təyyarənin qəzaya uğraması nəticəsində ümumilikdə 537 nəfər həlak olub.

2014-cü ildə təyyarə qəzalarında ölənlərin sayı 762 nəfər olub. Dekabrın 28-i radarlardan itmiş hava gəmisinin qəzaya uğraması təsdiqlənərsə, bu rəqəm 924 nəfərə çatacaq. "AzərTAc" xəbər verir ki, Niderlandın Aviasiya Təhlükəsizliyi Şəbəkəsi belə açıqlama yayıb.

Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının məlumatına görə, uçuşların sayı nəzərə alınarsa, ötən illərlə müqayisədə 2014-cü il qəzaların sayına görə təhlükəsiz il hesab oluna bilər. 2009-cu ildə bir milyon uçuşa 0,67 qəza düşmüşdüsə, 2014-cü ildə bu rəqəm 0,22 olub.



# Yanan gəmidən 251 nəfər xilas edilib

**Dekabrın 28-də Yunanıstandan İtaliyaya gedərkən İonik dənizində yanan "Norman Atlantic" sərnişin gəmisindən yeni xəbər var. "Media forum" saytı bildirir ki, İtaliyanın Hərbi Dəniz Qüvvələri dekabrın 29-u səhər saat 6-ya (Bakı vaxtı ilə saat 9-a) qədər 251 nəfərin xilas edildiyini açıqlayıb. Gəmidə 227 nəfər qalır.**

411 sərnişin, 56 ekipaj üzvü ilə yola çıxmış gəmidə yanğın qaraj bölümündən başlayıb. İndiyədək 1 nəfərin öldüyü bəllidir.

YENİ MÜSAVAT
N 318 (6027) 30 dekabr 2014

# İmişlidə seçki rəzaləti

## Səslər komissiya sədrinin əmisi oğlunun xeyrinə dəyişdirilib; Habil Cəfərov: "Protokol komissiya sədri tərəfindən oğurlandı"

**Dekabrın 23-də keçirilən bələdiyyə seçkilərinin nəticələrinə etiraz edənlərin sayı günbəgün artmaqdadır. Redaksiyamıza bununla bağlı hər gün demək olar ki, şikayətlər daxil olur. Müraciətlərdə seçkilərin saxtakarlıqla keçirildiyi iddia edilir.**

79 saylı İmişli seçki dairəsindən bitərəf namizəd olan Cəfərov Habil Əkbər oğlu bələdiyyə seçkiləri ilə bağlı şikayətini yuxarı orqanlara çatdırmaq üçün "Yeni Müsavat"dan kömək istəyib. Şikayətçi seçki günü kütləvi şəkildə saxtakarlıq edildiyini və səslərin komissiya sədrinin əmisi oğlu Cəfərov Xəqaninin xeyrinə dəyişdirildiyini bildirib: "İmişlinin Yalavac kəndində yaşayıram. 79 saylı seçki dairəsindən namizədliyimi vermişdim. Mənə aid olan məntəqələr 40, 41, 42 və 43 idi. Seçki günü baş verən misli görünməmiş saxtakarlıqlarla bağlı 115 qaynar xəttinə də məlumat vermişəm. Şikayətim əsasən 41 saylı məntəqədəndir. Bu məntəqədə rəqəmləri elə şişirdiblər ki, insan dəhşətə gəlir. 566 seçicinin gəldiyini bildirirlər. Nəticələrdə lider çıxanlar bir qrup qohumdur. Məntəqənin sədri guya ki, qalib gələn Cəfərov Xəqaninin əmisi oğludur. Təsəvvür edin ki, bu qohumların hər biri 500 səsi keçib. Mən səslərin təzədən sayılmasını tələb edirəm. Çox biabırçı seçki keçdi. Özüm müstəqil namizədliyimi irəli sürmüşdüm. Qohumlar saxtakarlıqla keçdilər, mən kənarda qaldım".

**Şikayətçi namizəd 43 saylı məntəqədə protokolun komissiya sədri tərəfindən oğurlanaraq aparıldığını da qeyd etdi:** "43 saylı məntəqədə gecə protokol komissiya sədri tərəfindən oğurlandı. Normal səs yığmışdım. Bələdiyyə sədri seçilən şəxs komissiya sədrinin doğmaca əmisi oğlu Cəfərov Xəqanidir. Birləşib bu saxtakarlığı törədiblər. Xəqani Cəfərov əvvəllər bələdiyyə sədri olub. Sonradan çıxıb, üzv kimi qalıb. Mənə öz olduğum kənddən 26 səs yazıblar. Gülməli bir vəziyyətdir. Dünən DSK-da seçkilərin nəticələri ilə bağlı müşahidəçilərin iştirakı ilə iclas keçiriblər. Amma müşahidəçimə xəbər verməyiblər. Bütün bunlar özlərinin saxtakarlıqlarını necə ifşa etdiklərindən xəbər verir".

Cəfərov Habil ölkə prezidentinə müraciət edib: "Cənab prezident, seçki günü baş verən saxtakarlıqlarla bağlı şikayətlərimizə baxan qurum yoxdur. Ümidimiz yalnız sizədir. Baş verən qanunsuzluqların üzə çıxarılmasında bizə kömək olun. Mən demokratik seçki tələb edirəm. Araşdırılma aparılsa, hər kəs namizəd olduğum məntəqədə qohumbazlığın "qələbə çaldığını" görər".

❑ **Cavanşir ABBASLI**

## 26 yaşlı ana doğuş zamanı öldü

**Azərbaycanda növbəti dəfə həkim məsuliyyətsizliyi səbəbindən doğuş zamanı ana ölümü baş verib. Axar.az xəbər verir ki, Şamaxı rayon sakini Emadin Gülalıyevin xanımı Gülnar Gülalıyeva dekabrın 28-də Neftçilər Xəstəxanasında doğuş zamanı dünyasını dəyişib. 26 yaşlı iki uşaq anası olan Gülnar Gülalıyeva üçüncü övladını dünyaya gətirən zaman həyatını itirib.**

## Bakıda intiharlar şoku

**Dekabrın 29-da saat 10:30 radələrində Bakının Səbayel rayonu ərazisində dəhşətli intihar hadisəsi baş verib. Hadisə şahidlərinin lent.az-a verdiyi məlumata görə, 25-30 yaşlı kişi özünü İçərişəhərdə Qız qalasından atıb. Dekabrın 29-da saat 03 radələrində Bakının Sabunçu rayonunda gənc kişi özünü körpüdən atmaq istəyib.**

Sabunçu Rayon Polis İdarəsi 12-ci polis bölməsindən ANS-ə verilən məlumata görə, 1987-ci il təvəllüdlü Xəyal Alik oğlu Məsimov metronun "Koroğlu" stansiyasının yaxınlığında, Ziya Bünyadov prospektində asma körpüyə çıxıb. O, qışqıraraq özünü atacağını bildirib.

Dərhal hadisə yerinə mühafizə polisinin əməkdaşları, Fövqəladə Hallar Nazirliyinin xilasediciləri və təcili yardım həkimləri cəlb olunublar.

Özünü körpüdən atan şəxsin həyatını xilas etmək mümkün olub.

İlkin ehtimala görə, X.Məsimov sosial problemlər səbəbindən özünü öldürmək istəyib. Lakin intihara cəhdin dəqiq səbəbləri aparılan araşdırmalardan sonra məlum olacaq.

Bakıda axşam saatlarında intihara cəhd olub.

APA-nın xəbərinə görə, 27 yaşlı Sevinc Əsədova Bakıxanov prospektindəki körpüdən özünü atıb. S. Əsədova müxtəlif bədən xəsarətləri ilə Klinik Tibbi Mərkəzə çatdırılıb. Onun vəziyyəti ağır qiymətləndirilir. İntihara cəhdin səbəbi bilinmir.

Hadisəni Yasamal polisi araşdırır.

Gəncə Şəhər Təcili Tibbi Yardım xəstəxanasından APA-ya verilən məlumata görə, 1992-ci il təvəllüdlü Amil Seyidov isə ağır zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdirilib.

Tibbi yardım nəticəsində onun həyatını xilas etmək mümkün olub.

Araşdırma zamanı məlum olub ki, A. Seyidov yaşadığı evdə əsəbləşərək gəmiricilər əleyhinə olan zəhər içib. Hazırda onun vəziyyətinin normal olduğu bildirilir.

## İki gənc qız dəm qazından boğuldu

**Bakıda 19 yaşlı qız bədbəxt hadisə nəticəsində ölüb. Nizami Rayon Polis İdarəsindən lent.az-a verilən məlumata görə, Məşədi Kazımov küçəsi 30 ünvanında yaşayan 1995-ci il təvəllüdlü Minə Musayeva hamam otağında qazdan zəhərlənib. 19 yaşlı qız meyiti evin həyətindəki hamamda tapılıb və dərhal hüquq-mühafizə orqanlarına müraciət edilib.**

Oxşar hadisə Salyan şəhərində də baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə dünən saat 21.30 radələrində şəhərin Ənnağı Hüseynov küçəsində qeydə alınıb. Həmin ünvanda kirayədə yaşayan Cəlilabad rayon sakini, 1999-cu il təvəllüdlü Sevanə İdris qızı Nəbiyeva hamamda dəm qazından boğularaq ölüb.

## Qısqanc ər arvadını amansızlıqla öldürdü

**Astara rayonunda qətl hadisəsi baş verib. APA-nın cənub bürosunun məlumatına görə, hadisə dekabrın 29-da səhər saatlarında rayonun Kakalos kəndində qeydə alınıb. Kənd sakini, 1978-ci il təvəllüdlü İsmayıl Mikayıl oğlu Əkbərov şəxsi münaqişə zəminində həyat yoldaşı, 1983-cü il təvəllüdlü Aytən İlham qızı Nurullayevanı boğaraq öldürüb. Hadisə yerinə rayonun hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb olunublar.**

Hadisəni törətmiş İ.Əkbərov yaxalanaraq istintaq orqanlarına təhvil verilib. A.Nurullayevanın meyiti isə müayinə olunmaqdan ötrü Səhiyyə Nazirliyi Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Lənkəran rayonlararası şöbəsinə aparılıb.

İlkin versiya kimi qətl hadisəsinin qısqanclıq zəminində törədildiyi bildirilir.



## "Nar Mobile" uşaq ədəbiyyatının inkişafına öz töhfəsini verdi

### Mobil operator "Ən yaxşı nağıl" müsabiqəsinin qaliblərini mükafatlandırdı

**"Nar Mobile" "Day.az" xəbər portalı ilə birlikdə Azərbaycanda uşaq ədəbiyyatının inkişaf və təşviq etdirilməsi, eləcə də yeni nağıl qəhrəmanlarının yaradılması məqsədilə müasir uşaqların təxəyyülünə uyğun olan yeni müsabiqə elan etmişdi. "SS Production" şirkətinin tərəfdaşlığı və Azərbaycan Yazıçılar İttifaqının dəstəyi ilə təşkil edilmiş müsabiqənin Münsiflər heyətinə Azərbaycan Yazıçılar İttifaqı Uşaq ədəbiyyatı bölməsinin müdiri Həşim Nəcəfzadə, Yazıçılar İttifaqının katibi Çingiz Abdullayev, uşaq yazıçıları - professor Zahid Xəlil, İlyas Tapdıq və Gülzar İbrahimova daxil ediliblər. Münsiflərin qərarı ilə müsabiqənin qalibi adına "Divə qalib gəlmiş Elşən" nağılının müəllifi olan Elman İsayev layiq görülüb. İkinci yeri Vüqar Haqverdiyevin qələmə aldığı "İbişin nağılı" tutub. Nərgiz Süleymanovanın "Azər və qızılpapaq" nağılı isə üçüncü olub.**

**Hər zaman elm, təhsil, mədəniyyət və ədəbiyyatın inkişafına dəstək verən "Nar Mobile" bu son dərəcə əhəmiyyətli müsabiqənin də sponsorluğunu öz üzərinə götürüb. Mobil operator ilk yerin sahibini "iPhone 5S" ilə mükafatlandırıb, 2-ci və 3-cü yeri tutan qaliblərə isə müvafiq olaraq "iPad mini" (16 GB) və Samsung mini-tableti təqdim edilib. Ən çox oxucu simpatiyası qazanan nağıl da mobil operator tərəfindən xüsusi olaraq "Nar-modem" və 6 aylıq pulsuz İnternet paketi ilə təltif ediləcək.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru "Nar Mobile" 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq, müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflər təqdim etmiş və onların rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun fərqliliyi və sərfəliliyi ilə seçilən İnternet paketləri və abunəçilərin hər zona üzrə eyni qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. "Nar Mobile" Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.**

## Salyanın qaz idarəsinin müdiri kəndlilərdən xərac yığır

### Bir kəndi qazsız qoyan Xəyyam Rzayev şikayətçilərə "özünüzü yormayın" xəbərini yollayıb

**Ötən saylarımızda Salyan Regional Qaz İdarəsinin müdiri Xəyyam Rzayevin rayonun Qarabağlı kəndini qışın ortasında qazsız qoyması haqda yazı dərc etmişdik. Hələ 2009-cu ildə bir mübahisə zəminində bütöv bir kəndin - Qarabağlının qazını kəsdirən müdir mətbuatın məsələyə diqqətindən sonra bir müddət işdən uzaqlaşdırılıb. Bugünlərdə redaksiyamıza daxil olan məlumatlardan bəlli oldu ki, həmin vaxt uşaqlaşdırılma müvəqqəti xarakter daşıyıb. Üstəlik, X.Rzayevin vəzifəsini böyüdüblər. Onu yeni yaradılan Salyan Regional Qaz İdarəsinə müdir təyin ediblər.**

Sakinlər deyir ki, X.Rzayev rayonun Qarabağlı, Kərimbəyli, Qaraçala kəndlərində sahibkarları incidir, onlardan qanunsuz ödəmələr tələb edir. "Yeni Müsavat"a daxil olan son məlumatda qeyd olunur ki, X.Rzayevin qanunsuz əməlləri haqda şikayətlərə baxan yoxdur: "Xəyyam Rzayev bayramqabağı qaz idarəsinin qeyri-rəsmi əməkdaşı Teymur Həsənovu salıb qapılara, pul tələb etdirir. Teymur Həsənov deyir ki, rəis "yuxarı"lara pay aparacaq. Üzümüzə deyirlər ki, özünüzü əbəs yerə yormayın, şikayətinizə baxan olmayacaq. Biz sadə insanlar prezidentə müraciət edərək Xəyyam Rzayev barəsində ölçü götürülməsini istəyirik".

Sakinlər deyir ki, X.Rzayevi əmisi Ağasəf Rzayev Salyan Regional Qaz İdarəsinə rəis qoydurub: "Onun "Azəriqaz"da da dayaqları var. Ona görə də idarə rəisinə "gözün üstə qaşın var" deyilmir".

Sakinlər işçilərinin də X.Rzayevin əməllərindən bezdiyini bildiriblər: "İşçiləri deyir ki, təkcə bu ilin noyabrında idarədən eyni adamların adına 4200 manat, dekabr ayında isə 5 min manat ezamiyyə xərcləri verilib. Amma Xəyyam Rzayev həmin pulları işçilərə verməyib. Günü restoranlarda keçir. Hara çatır deyir ki, 2018-ci ilə qədər regional idarənin rəisi işləyəcəm və "Azəriqaz"a müavin gedəcəm. O, hazırda Sabirabad Qaz İdarəsinə Roman adlı adamını təyin etdirmək üçün çalışır".

❑ **E.HÜSEYNOV**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 318 (6027) 30 dekabr 2014



# Nazirdən Bakı kəndlərinə işləyən avtobuslara qadağa

## Dərnəgül prospektindən və kəndlərdən gələn marşrutların “Koroğlu” metrosuna girişi qadağan ediləcək; Avropa Yay Oyunlarına görə sərnişinlərin 16 günlük məşəqqəti başlayır...

**Nəqliyyat Nazirliyi iyun ayında Bakı kəndlərinə işləyən marşrutlara məhdudiyyət tətbiq edəcək. Belə ki, metronun “Koroğlu” stansiyasından kənd və qəsəbələrə hərəkət edən avtobusların bu əraziyə girişi qadağan olunacaq. Avropa Yay Oyunları ilə əlaqədar nazirlik sözügedən məssivdə marşrutların dayanmasına icazə verməyəcək.**

Eyni qayda iyunun 12-dən 28-dək Ayna Sultanova heykəli istiqamətindən Dərnəgül yoluna da şamil olunacaq. Kəsəsi, Avropa oyunları günlərində yarışma keçirilən əraziyə avtobuslar işləməyəcək. Dərnəgül prospektində avtobus dayanacaqlarının tikilməməsi də marşrutların həmin ərazidən keçməyəcəyinə sübutdur. Artıq nazirlik iyunun əvvəlində bu qeyri-rəsmi qərarı reallaşdıracaq və tədbir yekunlaşandan sonra yenidən ictimai nəqliyyatda həyat öz axarına düşəcək.

Yeri gəlmişkən, indidən Bakı kəndlərinə işləyən avtobusların “Koroğlu” metrosunun qarşısından yığışdırılmasına başlanıb. Bir neçə gündür ki, nəqliyyat müfəttişləri sürücüləri metronun qabağındakı dayanacaqda avtobusları saxlamağa qoymur. Hətta ilk günlərdə bu məsələ sürücülərlə Nəqliyyat Departamenti əməkdaşları arasında mübahisəyə səbəb olub. Ancaq nazirliyin qərarı dəyişməzdi və avtobuslar yalnız “Koroğlu” körpüsünün altında saxlana bilər.

Odur ki, sərnişinlər metrodan çıxıb əvvəlki kimi dərhal marşruta minə bilmirlər. Bunun üçün bir az məsafə qət edib körpünün altına getmək lazımdır. Nəqliyyat müfəttişləri bunu ərazidə sıxlığın yaranması ilə izah ediblər. Onların sözlərinə görə, bu qayda axşam saatlarına qədər qüvvədədir və 8:00 radələrindən sonra metro qarşısında avtobus saxlamağa imkan verilir.







Sürücülərin dediyinə görə, bu qərar onlardan daha çox, sərnişinləri narazı salıb. Çünki körpünün altına qədər piyada getmək lazımdır. Sürücülər danışır ki, bu proses indidən başlanıb və iyunda, ümumiyyətlə, kənd avtobuslarının “Koroğlu”da dayanması yasaqlanacaq. Onların məlumatına görə, hələlik metronun “Qara Qarayev” stansiyasının qarşısının son duracaq kimi istifadə olunması nəzərdə tutulub.

Bununla belə, qərar dəyişə bilər və yeni trayektoriya kimi Bakıxanov qəsəbəsi seçilə bilər. Bu isə öz növbəsində həm sürücülər, həm sərnişinlər üçün 16 günlük əməlli-başlı işgəncə deməkdir. Həm vaxt itkisi, həm tıxaclar, həm yolun uzadılması şəhər əhalisinə cəhənnəm əzabı yaşadacaq. Sürücülər danışırlar ki, onlara hələlik heç bir xəbərdarlıq olunmayıb, amma az-çox bu haqda eşidiblər.

“Yevrovijn keçiriləndə də belə olmuşdu. Şəhəri təmizlədilər, köhnə taksiləri, avtobusları mərkəzə buraxmadılar. Bu il də olimpiya stadionu tərəfində marşrut buraxmayacaqlar. Ancaq o vaxt heç bir tıxac olmamışdı. İstəyəndə edirlər. Düzü, bizə heç nə deməyiblər. Guya biz kimik ki, nə desinlər. Yarışa 5-10 gün qalmış gəlib tələb edəcəklər ki, gedin burdan, filan yerdə saxlayın. Bura Azərbaycandır, hər variant mümkündür”, - deyə 136 saylı marşrut avtobusunda işləyən sürücü şikayətlənir.

**100 nömrəli marşrutda çalışan sürücülərdən biri isə deyir ki, onlara əslində “Qara Qarayev” sərf edir:** “Biz onsuz da axşam vaxtı, pik saatlarda ”Koroğlu" metrosunun qabağına gəlmirik. Gəlib körpüdən qalxırıq, düz Qarayevə qədər sürürük. Ordan da sıxlıq olmasa dönüb təzədən qayıdırıq, olsa metronun yanında saxlayırıq. Çünki tıxac olur, çıxa bilmirik. Əgər iyunda bizə desələr, ora gedin, heç pis olmaz. Körpünü qalxdın, 5 dəqiqəyə problemsiz çatırsan. Belə baxanda “Koroğlu” dəlixanadır".

Yada salaq ki, Nəqliyyat Nazirliyində Bakı Şəhər İcra Hakimiyyətinin, Bakı Şəhər Baş Dövlət Yol Polisi İdarəsinin, Dənizkənarı Bulvar İdarəsinin, Bakı Metropoliteninin və “Bakı - 2015" Avropa Oyunları Əməliyyat Komitəsinin (BEGOC) səlahiyyətli nümayəndələrinin iştirakı ilə geniş tərkibli müşavirə keçirilib. Azərbaycana 1500 ədəd yeni sərnişin avtobusları gətiriləcəyi planlaşdırılıb. Bu avtomobillərin Avropa Yay Oyunlarına qədər gətirilməsi nəzərdə tutulub. Nəqliyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Namiq Həsənov qeyd edib ki, bu avtobuslar əsasən Cənubi Koreya və Türkiyədən Azərbaycana gətiriləcək.

❑ **E.SALAMOĞLU**
**Fotolar müəllifindir**

# Hökumət internet mediaya niyə yardım ayırmır?




## **Osman Gündüz:** “Kritik anlarda, müəyyən ciddi proseslərin getdiyi zamanda əsas rolu məhz internet media oynayır”

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu növbəti ildə də internet mediaya maliyyə ayırmayacaq. Bu barədə Mətbuat Şurasının sədri Əflatun Amaşov modern.az saytına açıqlamasında bildirib. Ə. Amaşov qeyd edib ki, hazırda bununla bağlı hər hansı müzakirə aparılmır.**

Bəs görəsən, hökumətin internet mediaya maliyyə ayırmamasının səbəbi nədir? Məsələ ilə bağlı “Yeni Müsavat”a danışan **Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz** qeyd etdi ki, hazırki dövrdə dövlət internet mediaya daha çox diqqət ayırmalıdır: “Mənim fikrimcə, Mətbuat Şurasında belə bir fikir var ki, onlar internet mediaya bir biznes kimi yanaşırlar. Bu doğru yanaşma deyil. Xəbər portalları ilk növbədə məhz media qurumudur. İndiki dövr onu sübut edir ki, kritik anlarda, müəyyən ciddi proseslərin getdiyi bir zamanda əsas rolu məhz internet media oynayır. Yeni hadisələrin operativ işıqlandırılması, ictimai rəyə təsir, informasiya mühitinin yaradılmasında internet medianın xidmətləri daha çox olur. Bütün bu qonşu ölkələrdə baş verən müharibələr, çaxnaşmalar zamanı internet medianın bu rolu təsdiqini tapıb. Azərbaycanı da gələcəkdə ciddi hadisələr gözləyir, Dağlıq Qarabağ müharibəsi ola bilər və sair. Buna görə, mən düşünürəm ki, bu məsələlərdə internet media daha mühüm rol oynayır və zaman keçdikcə əhəmiyyəti daha da artacaqdır. Hökumətin internet mediaya dəstək göstərməmək ilə bağlı siyasəti həm strateji baxımdan, həm Azərbaycanın maraqları baxımından qüsurludur. Biz bununla bağlı Prezident Administrasiyasına da təkliflər vermişik, diskussiyalar keçirmişik. Bu barədə ictimai rəy, ekspertlərin rəyi də belədir ki, internet mediaya dövlət dəstəyi məsələsi həll olunmalıdır”.



Osman Gündüz

**İnternet medianın qanunla tənzimlənməsi məsələsinə gəlincə, O. Gündüz qeyd etdi ki, qanunvericilikdə də bunun mexanizmini müəyyənləşdirmək mümkündür:** “Qanunvericiliyə görə, internet də KİV sayılır. Bizdə məhkəmə çəkişmələri zamanı da internet mediaya "KİV haqqında" Qanunun tələbləri tətbiq olunub. Bu məsələ artıq öz həllini tapıb. Burada müəyyən prosedur məsələləri ola bilər ki, onu təlimatlara əsasən tənzimləmək mümkündür. Əgər hökumətin internet mediaya dəstəklə bağlı bir müsbət yanaşması olarsa, ondan sonra bu prosesdə iştirak etmək istəyən internet media qurumlarına müəyyən könüllü tələblər qoyula bilər ki, əgər siz dövlətdən dəstək almaq istəyirsinizsə müəyyən şərtlərə əməl etməlisiniz. Yeni hər hansı saytın ünvanı, koordinatları, redaksiya heyəti, telefonu, etik prinsipləri, nizamnaməsi və sair olmalıdır. Hökumət belə bir tələblər irəli sürə bilər ki, bu da normaldır. Bunu da biz Mətbuat Şurası ilə birgə hazırlaya bilərik. Vaxtilə biz bu istiqamətdə müəyyən addımlar atmışıq. Azərbaycanda İnternet Forumu olaraq Mətbuat Şurası ilə birgə belə bir müzakirələr aparmışdıq ki, hökumətin bu tipli yanaşması olarsa, internet media orqanları ilə bağlı hər hansı şərtlər irəli sürülə bilər”.

**“Yeni Nəsil” Jurnalistlər Birliyinin sədri, media eksperti Arif Əliyev isə “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bu məsələdə münasibəti birmənalı deyil:** “Mən KİV-lərin dövlət tərəfindən maliyyələşdirilməsinin əleyhinəyəm və hesab edirəm ki, bu, media azadlığı prinsiplərinə ziddir”.

**“Turan” İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev “Yeni Müsavat”a dedi ki, hökumət mediaya pul yardımı ayırmaqdansa onun biznes fəaliyyəti üçün zəmin yaratmalıdır:** “Küçədə, metroda, köşklərdə qəzet satışına əngəl törədirlər, reklam bazarını inkişaf etdirməyə imkan vermirlər və sair. Mən həmişə mediaya yardım verilməsinin əleyhinə olmuşam və bunu düz hesab etmirəm”.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT

Son səhifə

*N 318 (6027) 30 dekabr 2014*



# Polisə siqnal verdiyi üçün həbs olundu

İngiltərənin Blekpul şəhərində polis onlara siqnal verən bir sürücünü həbs edib. Bu barədə "The Daily Mail" qəzeti xəbər verib. 34 yaşlı Pol Samara işdən sonra evə gedərkən qarşısında hərəkət edən polis maşını onu əsəbləşdirib. Belə ki, polis maşını tez-tez, qəfil əyləci basaraq dayandığı üçün sürücü də sonunda buna dözməyib və siqnal verib. Bundan sonra polis maşınından bir polis əməkdaşı düşüb və Samaraya hərəkətinin çox yanlış olduğunu deyib. O, eyni zamanda sürücüyə bildirib ki, onlar itmiş bir uşağı axtardıqları üçün tez-tez maşını saxlayırlar. Polis işçisi sürücüyə sonda bunları deyib: "Əgər sizin gələcəkdə hər hansı probleminiz olsa, bizə müraciət etməyin, çünki bizə maraqlı olmayacaq".

Bu sözə görə tərəflər arasında mübahisə düşüb və Pol Samara da polisə cavab qaytardığı üçün onlar sürücünü həbs ediblər. Polis bölməsində onun barmaq izlərini götürüblər, ictimai asayişi pozduğu üçün cəzalandırıblar. Polislər bəyan edib ki, sürücü onları aşağılayıb və təhdid edib. Bu məsələnin araşdırılması yarım il davam edib. Amma Samaranın özünü qanundan kənar aparması ilə bağlı hər hansı fakt tapılmadığı üçün onu cəzalandırmayıblar. İstintaq yekunlaşandan sonra isə Samara bildirib ki, polislərə qarşı hər hansı şikayət verməyi düşünmür. Çünki adi həyatına geri qayıtmaq istəyir.

# Gözəl qadınlar çirkin kişilərə üstünlük verir

Aparılan elmi araşdırmaların nəticəsinə görə, bir çox gözəl qadınlar çirkin kişilərlə münasibətə üstünlük verir. Bunun səbəblərindən biri odur ki, yaraşıqlı bir kişi qadınlara qarşı nəzakətli, mərd və anlayışlı olmaq baxımından digər kişilərdən çox geridədir. Qadınlar isə bunu çox yaxşı hiss edir. Kişilər gözləri ilə sevdiyi halda, qadınlar hisslərinə güvənməyə üstünlük verir. Nəticədə bütün kişilər gözəl qadın axtararkən, qadınlar qüsurlarını "yaraşıqlı olmaq" avantajının arxasına gizlətməyən kişiləri seçir. "Qarşı cinsdə nə axtardığını" isə onlar ancaq 30 yaşında başa düşür. Əgər 30 yaşındakı bir qadının yaraşıqlı bir kişi ilə deyil,



çirkin biri ilə görüşürsə, həmin qadını təbrik etmək lazımdır. Çünki ancaq ağıllı qadınlar bu cür seçim edir.

# 7 yaşlı oğlanın 80 dişini çıxardılar



Hindistanın şəhəri Qvalivorda 7 yaşlı oğlanın 80 dişini çıxarıblar. Bu barədə "The Times of India" qəzeti yazıb. Bir neçə cərrahın iştirak etdiyi əməliyyat 4 saata yaxın davam edib. Adı açıqlanmayan uşağın üst dişlərində abses başlanıb ki, bu da həmin yaşlarda nadir hallarda görünən bir haldır. Həkimlər bildirib ki, əgər valideynləri uşağı vaxtında gətirməsəydi, 4 il ərzində uşağın ağzındakı dişlərin sayı 200-ə çata bilərdi. İyul ayının sonunda isə cərrahlar 17 yaşlı Aşik Qavayın 232 dişini çıxarmışdılar.

# Tozsoran satıb kraliçanı geridə qoydu

Dünyaca məşhur "Dyson" tozsoranlarının ixtiraçısı Ceyms Dayson həyatda uğur qazanmış şəxslərdən biridir. O, indi Britaniyada sahib olduğu daşınmaz əmlakın ümumi dəyəri baxımından kraliça II Yelizavetanı da geridə qoyub.



Milli.az "The Sunday Times"ə istinadən bildirir ki, milyarder ixtiraçının hazırda Britaniyanın ən məşhur məkanlarında 25 min akrdan artıq sahəyə malik malikanələri, evləri və qəsrləri var.

Onun satın aldığı son malikanə 3 min hektar həyətyanı sahəsi olan, Kranuell və Rokholm arasında yerləşən qəsrdir.

67 yaşlı ser Ceyms Daysonun dediyinə görə, daşınmaz əmlakının dəyəri baxımından zadəganların tam əksəriyyətini geridə qoyub.

C.Daysonun Fransada 5 milyon dollarlıq şatosu və Çelsidə taunhausu da var.



# Şokolad mədə xərçəngini artırır

Çox şokolad yemək mədə xərçəngi riskini artırır. Türkiyə mətbuatının yazdığına görə, həzm sistemi xəstəliklərini araşdıran mütəxəssislər çox şokolad və duzun mədə xərcəngi riskini artırdığını ortaya çıxarıb.

Mütəxəssislər dünyada mədə xərçənginin ağciyər xərçəngindən sonra ikinci yerdə olduğunu bildirib. Xərçəng xəstəliyindən əziyyət çəkən hər 10 nəfərdən biri mədə xərçəngi xəstəsidir. Ancaq bu rəqəm ayrı - ayrı ölkələrə görə dəyişir. Məsələn, Yaponiya və Latın Amerkasında sözügedən xəstəliyə daha çox rast gəlinir.

Həkimlər bu xəstəliyin yaranmasında qidalanmanın və həyat tərzinin önəmli rol oynadığını bildirir. Şokolad və duz da bu qidalar sırasındadır.




**QOÇ** - Yeni il yaxınlaşdıqca öhdəlikləriniz də artmaqdadır. Ətrafınızda olanlara biganə yanaşmayın. Sizə ehtiyac duyanlara mərhəmət göstərin. Şəxsi işlərinizdə dönüş gözlənilir.

**BUĞA** - Gərgin bir gün yaşaya bilərsiniz. Orqanizminizdə baş qaldıran nasazlıq və qarşılıqlı münasibətlərdə gərginlik sizi yora bilər. Nəzərə alın ki, saat 15:55-dən mənfi enerjili Ay bürcünüzdə olacaq.

**ƏKİZLƏR** - Ailədaxili məsələlərə təmkinlə yanaşsanız, mənfi enerjili qüvvələr sizi yoldan döndərə bilməyəcək. Bugünkü təqvimdə maddi rifah halınızın yüksələcəyinə də inam bəsləyin.

**XƏRÇƏNG** - Ən düşərli zaman kəsiyindən məhz siz keçəcəksiniz. Sevindirici xəbərlər, perspektivli təkliflər ovqatınıza müsbət təsir göstərəcək. Sevgi amili isə daha ön plana çəkiləcək.

**ŞİR** - Özünüz şərait yaratmasanız, kimsə işlərinizə müdaxilə etməyəcək. Pulla bağlı sövdələşmə və planların heç birini təxirə salmayın. Axşama doğru maraqlı insanlarla görüşəcəyiniz də mümkündür.

**QIZ** - İşlərinizə mane olan bədxahlara qarşı tədbirli olun. Bu təqvimdə həmkarlarınıza da çox bel bağlamayın. Əgər bu gün işləməsəniz, mənfi çalarlı heç bir hadisə baş verməyəcək.

**TƏRƏZİ** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimi neytral şəkildə ötürəsiniz. Hansısa qeyri-adiliklərə, risklərə getməyin. Sağlamlığınıza isə xüsusi diqqət yetirin. Sövdələşmələrdən yayının.

**ƏQRƏB** - Ümumi ovqatınızda müəyyən natarazlıq olsa da, bunun səbəbi insanlardan yox, təbiətin pozulmuş ahəngindən irəli gəlir. Buna baxmayaraq, ulduzlar perspektivli təkliflər alacağınızı göstərir.

**OXATAN** - Ailə-sevgi münasibətlərinə həssas yanaşsanız, qarşınızı kəsən digər maneələri asanlıqla dəf etmək imkanı qazanacaqsınız. Şəxsi büdcənizi mənasız məsrəflərə xərcləməyin.

**OĞLAQ** - Astroloji göstəricilər soyuqdəymə halları ilə rastlaşacağınıza işarə edir. Qalın geyinməklə bahəm, qida və yuxu rejiminə də fikir verməlisiniz. İndi "hakim" bürc olduğunuzu unutmayın.

**SUTÖKƏN** - Bayram ovqatlı bu gözəl təqvim sizin üçün ən düşərli ərəfə olacaq. Narahat olmağa heç bir səbəb yoxdur. İstənilən sövdələşmədə iştirakınız uğurlu olacaq. Uzaq səfərə çıxmağa dəyər.

**BALIQLAR** - Daxili sıxıntılarınıza biganə yanaşmayan Göy qübbəsi bu təqvimdə qayğınıza qalacaq. Sizsə öz növbənizdə başqalarının işinə qarışmamalı, yalnız öz problemlərinizlə məşğul olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Mərhumu dəfn maşını ilə birgə oğurladılar



Los Anceles şəhərində baş verən dəfn mərasimində qəribə oğurluq hadisəsi baş verib. 19 yaşlı Cin Li Ridanın tabutunun yerləşdiyi dəfn maşını tabutla birlikdə bir oğru tərəfindən qaçırılıb. Avtomobilin itməsindən xəbər tutan keşiş dərhal bu barədə polisə xəbər verib. Mərhumun ailəsi də dəfn maşınını oğurlayanı şəxsən yaxalayıb. Oğruya qarşı cinayət işi açılıb. Bundan başqa, onun psixiatrik ekspertizadan keçirilməsi də nəzərdə tutulub. Keşişin həyat yoldaşı isə deyib ki, bu, kilsənin 75 illik tarixi boyunca baş vermiş ilk belə hadisədir. Noyabrın sonunda buna bənzər hal Avstraliya şəhəri olan Uenvort Folsda baş verib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.400

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.